## Külək eyni yolda ikinci yük maşınını da aşırdı



**Bakıda güclü külək yük maşınını minik avtomobilinin üzərinə aşırıb.**

Hadisə Səbail rayonunda, "Jurnalistlər binası"nın qarşısında qeydə alınıb.

90-JP-231 dövlət qeydiyyat nişanlı yük avtomobili güclü küləyin təsirindən minik avtomobilinin üzərinə aşıb.

## Bakıda güclü külək nəticəsində 7 nəfər xəsarət aldı



**Paytaxtda hava şəraiti ilə əlaqədar küləyin fəsadlarından yeddi nəfər (üç kişi, dörd qadın) müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Bu barədə Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından məlumat verilib.

*Bildirilib ki, xəsarət alanlar tibbi yardım göstərilməsi üçün yaxınlıqdakı xəstəxanalara çatdırılıblar.*






№ 205 (5487), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

11 noyabr 2021-ci il (cümə axşamı)

# Kiçik bir səhv, ani qəzəb həyatı bitirir

### Vətən döyüşçüsünün "Tik-Tok" qurbanına çevrilməsi çox üzücüdür

**"Tik-Tok" can aldı. Həm də bir Vətən döyüşçüsünün. Hadisə ilə bağlı Baş Prokurorluq məlumat yayıb. Qeyd olunur ki, noyabrın 9-u saat 17 radələrində şəhər sakini 1991-ci il təvəllüdlü Natiq Ramazanovun aldığı xəsarət nəticəsində xəstəxanaya aparılarkən yolda ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Aparılmış araşdırmalarla müəyyən edilib ki, Natiq Ramazanov "Tik-Tok" sosial şəbəkəsində yazdığı nalayiq ifadələrlə əlaqədar şəhər sakini, 1982-ci il təvəllüdlü Əli Musayev ilə Nizami rayonu, Q.Qarayev prospektində görüşüb, bu zaman aralarında baş vermiş mübahisə zamanı sonuncu Natiq Ramazanova sağ budun yuxarı nahiyəsindən bıçaqla xəsarət yetirib və nəticədə o, xəstəxanaya aparılarkən yolda keçinib. Faktla bağlı Nizami rayon prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

(səh.2)



## Türkiyə Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb

### Ərdoğan: "Azad edilmiş torpaqların yenidən qurulması və bərpası prosesində dəstəyimiz fasiləsiz davam edəcək"

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

**Təbrik məktubunda deyilir:**

"Cənab Prezident, Əziz Qardaşım.

Can Azərbaycanın Zəfər Günü münasibətilə türk milləti adından və şəxsən öz adımdan Zati-aliniz başda olmaqla bütün azərbaycanlı qardaş və bacılarımı ən səmimi hisslərimlə təbrik edirəm.

(səh.2)

# Türkiyə ordusu daha bir il Qarabağda

### Türk sülhməramlıların Azərbaycandakı mandatı uzadıldı



**Dünən Türkiyə Böyük Millət Məclisinin (TBMM) növbəti iclası keçirilib.**

**İclasda Azərbaycandakı Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzindəki türk hərbçilərin mandatının daha bir il uzadılması barədə qanun layihəsi müzakirə olunub.**

Qanun layihəsinin ikinci oxunuşundan sonra, mövzu ilə bağlı 7 millət vəkili çıxış edib.

TBMM-in Ədalət və İnkişaf Partiyası (AKPartiya), Milliyyətçi Hərakat Partiyası (MHP), Cümhuriyyət Xalq Partiyası (CHP), İyi Partiya və Böyük Birlik Partiyasının (BBP) nümayəndələri qanun layihəsinin lehinə məruzə ediblər.

Azərbaycanın müzəffər ordusunun qələbəsinin birinci ildönümündən bəhs edən çıxışçılar bir il öncə bu qələbədə hakimiyyət, xalq və ordu birliyinin önəmli rol oynadığını bildiriblər.

2020-ci il noyabrın 16-da Türkiyə Böyük Millət Məclisi Türkiyə Silahlı Qüvvələrinə Azərbaycana əsgər göndərmək üçün 1 illik səlahiyyət vermişdi.

(səh.2)



## Avropa İttifaqı sərhədyanı ərazilərdə gərginliyi azaltmağa çağırır

### Təşkilat Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyasını dəstəkləməyə hazırdır

**Avropa İttifaqı (Aİ) Azərbaycan və Ermənistan arasında deeskalasiyanı və sərhədlərin delimitasiyasını dəstəkləməyə hazırdır.**

Trend-in məlumatına görə, bu barədə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə rəsmi nümayəndəsi Peter Stanonun bəyanatında deyilir.

Bəyanatda bildirilir: "Bu həftə Ermənistan və Azərbaycan arasında imzalanmış atəşkəs sazişindən sonra Qarabağda və onun ətrafında hərbi əməliyyatların dayandırılmasının birinci ildönümüdür.

Aİ bu döyüşlər zamanı insan təlafatına görə təəssüflənir, həlak olanların və yaralananların ailələrinə başsağlığı verir. Döyüş əməliyyatları dayandırılsa da, danışıqlar yolu ilə hərtərəfli və dayanıqlı həllə doğru irəliləmək üçün bir çox məsələlər hələ də həll edilməlidir. Biz xüsusilə tərəfləri atəşkəs rejiminə ciddi riayət etməyə, minaların təmizlənməsi üzrə tam əməkdaşlığa və sərhədyanı ərazilərdə gərginliyin azaldılmasına çağırırıq.

Aİ dinc və firavan Cənubi Qafqazın qurulmasına sadiq qalır, sülh quruculuğu və münaqişədən sonrakı yenidənqurma işlərində fəal iştirak edir. Aİ Cənubi Qafqazda qarşılıqlı fəaliyyəti və iqtisadi əməkdaşlığın bərpasını təşviq edir".

## Ceyhun Bayramov Makronun müşaviri ilə görüşdü

### Azərbaycan-Fransa ikitərəfli münasibətlərin cari vəziyyəti müzakirə olunub



**Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov Fransa Respublikası Prezidentinin diplomatik müşaviri Emmanuel Bon ilə görüşüb.**

Bu barədə Azərbaycan XİN məlumat yayıb.

Görüşdə tərəflər post-münaqişə mərhələsində bölgədə mövcud olan cari vəziyyət və yeni reallıqlar ətrafında fikir mübadiləsi aparılar.

(səh.4)



## Ermənistan biabırçı kapitulyasiya ilə diz çökdü

### 10 noyabr bəyanatı düşmənin özü haqqında yaratdığı mifi də darmadağın etdi

**Prezident İlham Əliyev, Rusiya rəhbəri Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanatın imzalanmasının ildönümü tamam oldu.**

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başladı.

(səh.4)

# Rusiya gərginliyin artmasında maraqlıdır

### Moskva və İrəvan məcburiyyət qarşısında qoyulmalıdır



**Ermənistan prezidenti Armen Sarkisyan "Arqument i faktı" qəzetinə müsahibə verib.**

Qarabağdakı rus hərbçilərinin fəaliyyətini yüksək qiymətləndirən dövlət başçısı buna görə rəsmi Moskvaya minnətdarlıq edib. O, həmçinin bildirib ki, sülhməramlılar Qarabağdan çıxmamalı, ərazidə daimi qalmalıdırlar. Çünki bu, regional sabitlik üçün əsas təminatdır.

Sülhməramlıların Qarabağda uzun müddət qalması, şübhəsiz, Ermənistanın ürəyincədir. Bu, Rusiyanın da maraqlarına cavab verir.

(səh.3)

## Bütün ərzaq məhsulları bahalaşır

### Nazirlər büdcənin kəsirlərindən, deputatlar isə xalqın dərdindən danışdılar



**"Büdcə gəlirlərinin əsasını yenə də neft amili təşkil edib. Bu, indiki mərhələdə riskləri kifayət qədər artıracaq".**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı komitə sədrinin müavini Əli Məsimli deyib.

(səh.3)

## 1 876 yeni yoluxma faktı qeydə alınıb

### 22 nəfər ölüb, 2 248 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 876 yeni yoluxma faktı qeydə alınıb, 2 248 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 552 322 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 513 648 nəfər müalicə olunaraq sağalıb, 7 342 nəfər vəfat edib, aktiv xəstə sayı 31 332 nəfərdir.*



## İngilis və rus dilini bilməyənləri işə götürmürlər

### Millət vəkili bölgələrdəki işsizlikdən danışıb

(səh.4)



## "Artıq bütün vətəndaşların cəriməsi var"

### Fazil Mustafa BNA-nın fəaliyyətini tənqid edib

(səh.4)

# Türkiyə ordusu daha bir il Qarabağda

## Türk sülhməramlıların Azərbaycandakı mandatı uzadıldı




Ankaranın bu qərarı o deməkdir ki, qardaş ölkə hərbi məsələlərdə daim Azərbaycanın yanında yer alacaq

**Dünən Türkiyə Böyük Millət Məclisinin (TBMM) növbəti iclası keçirilib.**

**İclasda Azərbaycandakı Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzindəki türk hərbçilərin mandatının daha bir il uzadılması barədə qanun layihəsi müzakirə olunub.**

Qanun layihəsinin ikinci oxunuşundan sonra, mövzu ilə bağlı 7 millət vəkili çıxış edib.

TBMM-in Ədalət və İnkişaf Partiyası (AKPartiya), Miliyyətçi Hərakat Partiyası (MHP), Cümhuriyyət Xalq Partiyası (CHP), İyi Partiya və Böyük Birlik Partiyasının (BBP) nümayəndələri qanun layihəsinin lehinə məruzə ediblər.

Azərbaycanın müzəffər ordusunun qələbəsinin birinci ildönümündən bəhs edən çıxışçılar bir il öncə bu qələbədə hakimiyyət, xalq və ordu birliyinin önəmli rol oynadığını bildiriblər.

2020-ci il noyabrın 16-da Türkiyə Böyük Millət Məclisi Türkiyə Silahlı Qüvvələrinə Azərbaycana əsgər göndərmək üçün 1 illik səlahiyyət vermişdi. Öz növbəsində Türkiyə hərbiçiləri də atəşkəsə nəzarət üçün Monitorinq Mərkəzini Ağdamda yerləşdirmişdi. Türkiyə hərbçilərinin sayı Rusiya sülhməramlıları qədər olmasa da, nəticə etibarilə Ankaranın Qarabağda hərbi varlığının olması özlüyündə mühüm amildir. Prinsip etibarilə, Türkiyə Prezidenti qanun layihəsini parlamentə təqdim etməyə də bilərdi. Lakin o, bu addımı ilə Türkiyə hərbçilərinin Qarabağda qalmasını istədiyini bir daha göstərmiş oldu. Görünür, Ərdoğan bu vəziyyətin dəyişməsini istəmir. Ərdoğanın parlamentə təklif etdiyi bu qanun layihəsi böyük səs çoxluğu ilə qəbul edildi.

Ekspertlərə görə, Türkiyənin Qarabağda hərbi mövcudluğunun olması Bakı üçün hər zaman məqbuldur. Azərbaycan onsuz da uzun illərdir Rusiyaya alternativ və tənzimləyici amil olaraq Türkiyənin Qarabağda və ya ən azından ölkə daxilində hərbi qüvvəsinin olmasını istəyib. Təsadüfi deyil ki, 10 noyabr bəyanatı imzalanarkən bu məsələ də öz əksini tapdı və Qarabağda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi yaradıldı. Bu fakt özlüyündə Bakının Kremllə birlikdə Ankaranın da Qarabağ prosesində olmasını arzuladığını göstərir.

**Türkiyədə yaşayan azərbaycanlı alim, "Sütçü İmam" universitetinin professoru Toğrul İsmayıl "Şərq"ə açıqlamasında deyib ki, Ərdoğanın türk hərbçilərlə bağlı qanun layihəsini parlamentə təqdim etməsi normal prosedura əsaslanır. Professor xatırladıb ki, Suriya və İraq məsələlərində də Türkiyə hərbçilərinin Yaxın Şərqdə qalması müddəti Məclis tərəfindən uzadılmışdı:** "Türkiyə Silahlı Qüvvələrinin Qarabağda daha çox qalması, müəyyən olunmuş vaxtın uzadılması çox mühüm məsələdir. Türkiyə rəhbərliyi bu addımı ilə bir daha nümayiş etdirir ki, hər zaman Azərbaycanın yanında olacaq. Bu, beynəlxalq əhəmiyyətli qərardır. Monitorinq Mərkəzində Türkiyənin təmsil olunması Rusiyadan qaynaqlanan istənilən fəsadın önünü almaq üçün bir əngəl, maneə rolunu oynayır. Ərdoğanın məlum addımı sadəcə Ermənistan və Rusiyaya deyil, bütün dünyaya mesajdır. Türkiyənin hərbi baxımdan daim Azərbaycanın yanında yer alacağının göstəricisidir. Bununla Azərbaycan-Türkiyə əlaqələrinin, o cümlədən hərbi əməkdaşlığın daha dərin olduğu vurğulanır. Şuşa Bəyannaməsinə görə, iki qardaş ölkə arasındakı hərbi əməkdaşlığın strateji müttəfiqlik müstəvisinə çıxarılması nəzərdə tutulur. Xüsusən, Qarabağ məsələsində ortaq hərəkət edilməsi əsaslı şəkildə qeyd olunur".

**İsmayıl Qocayev**

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

**Təbrik məktubunda deyilir:**

"Cənab Prezident,
Əziz Qardaşım.

Can Azərbaycanın Zəfər Günü münasibətilə türk milləti adından və şəxsən öz adımdan Zati-aliniz başda olmaqla bütün azərbaycanlı qardaş və bacılarımı ən səmimi hisslərimlə təbrik edirəm.



# Türkiyə Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb

## Ərdoğan: "Azad edilmiş torpaqların yenidən qurulması və bərpası prosesində dəstəyimiz fasiləsiz davam edəcək"

Qarabağ və Şərqi Zəngəzurun sürətli şəkildə abadlaşmasından, işğalın izlərinin qısa müddətdə silinməsindən məmnuniyyət hissi duyuram. İşğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpası prosesində dəstəyimiz bundan sonra da fasiləsiz davam edəcəkdir.

Azərbaycanın ötən il noyabrın 8-də işğaldan azad edilmiş mədəniyyət paytaxtı Şuşada imzaladığımız Bəyannamə ilə münasibətlərimizin müttəfiqlik səviyyəsinə çatdırılması ölkələrimiz üçün tarixi addımdır. Həmrəyliyimizin bundan sonra da "Bir millət, iki dövlət" şüarı ilə hər sahədə inkişaf edəcəyinə şübhə yoxdur.

Azadlıq uğrunda şəhid olan qardaşlarımızı rəhmət və ehtiramla yad edir, qələbə yolunu açan qazilərimizə minnətdarlığımı bildirirəm.

Əziz Qardaşım, fürsətdən istifadə edərək Zati-alinizin cansağlığı və xoşbəxtliyi, can Azərbaycan xalqının rifahı və firavanlığı üçün ən xoş arzularımı çatdırıram".

# Format bütün dövlətlərin maraqlarına cavab verir

## "3+3 formatının işə salınması üzrə planları praktiki müstəviyə keçirməyin vaxtı çatıb"




**"Biz hesab edirik ki, Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya, Ermənistan və İranın iştirakı ilə 3+3 formatının işə salınması üzrə planları praktiki müstəviyə keçirməyin vaxtı çatıb."**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı deyib.

"Biz o fikirdəyik ki, 3+3 formatı regionun bütün dövlətlərinin maraqlarına cavab verir" - deyə M.Zaxarova bildirib.

# 500 milyon manata qənaət edilib

## Nazir deyib ki, əsassız və saxta pensiyalar ləğv olunub

**Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sosial siyasət komitəsi 2022-ci ilin büdcə zərfinə dair müzakirələrə başlayıb.**

İclasda İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, parlamentarilər, o cümlədən müxalifət partiyalarının sədrləri də iştirak ediblər. Müzakirələrdən sonra qanun layihələri birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə olunub.

**"Gələn il də azad olunmuş ərazilərin bərpası əsas prioritet olacaq"**

**2022-ci il dövlət büdcəsinin müzakirəsi zamanı çıxış edən Maliyyə naziri Samir Şərifov deyib ki, gələn ilin dövlət büdcəsinin xərcləri müstəqillik tarixində indiyə qədər ən böyük xərclər olan büdcədir.** Nazir bildirib ki, cari ildə olduğu kimi 2022-ci ildə işğaldan azad olunmuş ərazilərin bərpası əsas prioritet olaraq qalmaqdadır: "Bərpa prosesi sürətli və əzəmətlidir. Dövlət başçısının tapşırığından irəli gələn bu ümdə vəzifələrin növbəti ildə də davam etdirilməsi üçün 2,2 milyard vəsait ayrılması nəzərdə tutulub. 2022-ci il və sonrakı 3 il üçün proqnozlaşdırılan büdcə layihələri iqtisadi artımı, şəhid ailələrinin, müharibə qəhrəmanlarının sosial müdafiəsini dəstəkləyəcək. Dövlət və icmal büdcələrinin gəlir və xərcləri hesablanarkən cari ilin 9 ayının icra göstəricilərinə də diqqət yetirilib, müvafiq əlavə və dəyişikliklər edilib. Ölkə iqtisadiyyatının COVİD-19 pandemiyasının təsirlərindən bərpası prosesi sürətlə getməkdədir. Bu il dövlət büdcəsinin vergi və gömrük daxilolmaları proqnozlaşdırılandan artıq olub. 2025-ci ilədək büdcə layihələrinin əsasını Böyük Qayıdışı təmin etmək üçün görüləcək işlər təşkil edəcək".

**"Büdcədə əməkhaqlarının artırılması üçün vəsait nəzərdə tutulub"**

*S.Şərifov bəyan edib ki, sosial müdafiə və sosial təminat üçün gələn ilin dövlət büdcəsindən 3 milyard manatdan çox vəsait ayrılacaq:* "Prezidentin tapşırığına uyğun olaraq, növbəti ilin dövlət büdcəsində əməkhaqlarının artırılması üçün vəsait nəzərdə tutulub. Həmin artımlar hesabına sosial sığorta yığımları da artacaq. Eyni zamanda ölkədə qeyri-formal məşğulluğun azaldılması, əmək münasibətlərinin rəsmiləşdirilməsi sosial sığorta haqlarının yığımına və artmasına müsbət təsir edib. Sosial sığorta haqlarının artması hesabına Dövlət Sosial Müdafiə Fondunun gəlirləri artır. Növbəti ildə aztəminatlı ailələrə verilən vəsait üçün də ayırmalar büdcədə qeyd edilib. Əlavə məşğulluğun təşkili üçün də büdcədən müvafiq vəsait yönəldilib".



## "Başlıca çağırış ölkə iqtisadiyyatının neftdən asılılığını sıfıra endirməkdir"

*Samir Şərifov əlavə edib ki, 2022-ci ildə dövlət büdcəsində səhiyyə xərcləri üçün 1 milyard 789 milyon manat vəsait nəzərdə tutulub.* Nazir bildirib ki, son 5 ildə səhiyyə üzrə xərclərin ümumdaxili məhsulda (ÜDM) payı artıb: "Bu sahədə xərclərin məbləği mütləq ifadədə 2,5 dəfə artıb. Səhiyyə xərcləri üçün ayrılmış vəsaitin 63 faizi icbari tibbi sığortanın tətbiqinə yönəldilib. Eyni zamanda gələn il də koronavirus pandemiyası ilə mübarizəyə vəsait ayrılması da səhiyyə xərclərində yer alıb".

**"Milli prioritetlərə uyğun 5 illik dövrü əhatə edən strateji sənəd hazırlanıb"**

Maliyyə naziri qeyd edib ki, 2022-ci ilin dövlət və icmal büdcələrinin layihələri hazırlanarkən ölkənin 2030-cu ilədək milli prioritetləri əsas götürülüb: "Prezidentin sərəncamına uyğun olaraq Maliyyə Nazirliyi 5 illik dövrü əhatə edən strateji sənəd hazırlayaraq dövlət başçısına təqdim edib. Bununla yanaşı, dövlət və icmal büdcələrin hazırlanmasında İqtisadiyyat Nazirliyinin hazırladığı makroiqtisadi proqnoz göstəriciləri də əsas kimi qəbul edilib".

*Samir Şərifov qeyd edib ki, büdcə gəlirlərimiz nəzərdə tutulandan daha artıqdır:* "1,5 milyard manat məbləğində artıq daxilolmalar gözlənilir. Nazir bildirib ki, bura 1,2 milyard manat İqtisadiyyat Nasirliyi yanında Vergi Xidmətindən, 200 milyon manat Dövlət Gömrük Komitəsi, 100 milyon manat isə digər qurumlardan daxilolmalar daxildir. Neft qiymətlərinin artımı prosesi də göz qabağındadır. Dünyada bununla bağlı müxtəlif senarilər söylənilir. Bu senarilər ötən ilin payızında mövcud deyildi. Senarilərin əsası ondan ibarətdir ki, dünya peyvəndlərin ərsəyə gəlməsi ilə bağlı tənəzzüldən tədricən çıxacaq və bərpa prosesinə qədəm qoyacaq. Lakin bu bərpa prosesinin hansı şərtlərlə, problemlərlə üzləşəcəyi senarilərdə yox idi. Dünya miqyasında bu gün tələb və təklif arasında böyük uçurum yaranıb".

**"500 milyon manata qənaət edilib"**

**İqtisadiyyat naziri Mikayıl Cabbarov isə vurğulayıb ki, əsassız pensiyaların ləğvi nəticəsində xeyli vəsaitə qənaət edilib:** "2018-ci ildə 25 milyon, 2019-cu ildə 133 milyon, 2020-ci ildə 346 milyon manat məbləğində əsassız və saxta pensiya işləri ləğv edilib. Cari ilin 10 ayı üzrə isə əsassız və saxta pensiya işlərinin ləğv edilməsi nəticəsində təqribən 500 milyon manat məbləğində vəsaitə qənaət edilib. Hazırda Azərbaycan 2022-2030-cu illəri əhatə edən yeni inkişaf mərhələsinə daxil olur. Qarşımızda iqtisadi artımın daha dayanıqlı hala gətirilməsi, milli iqtisadiyyatın maliyyə dayanıqlılığının daha da gücləndirilməsi və işğaldan azad edilmiş ərazilərin bərpa edilməsi kimi ümdə vəzifələr durur".

**"Bu il ölkədə iqtisadi artımın 5 faizdən çox olması gözlənilir"**

*Mikayıl Cabbarov bildirib ki, cari ildə iqtisadi artımın 5 faizdən çox olması gözlənilir. Nazir bildirib ki, qeyri-neft sektorunda iqtisadi artımın sürətlənməsinə təkan verən amillər mövcuddur:* "Cari ilin 9 ayında qeyri-neft sektorunda əlavə dəyər artıb. Son illər hökumət tərəfindən sənaye zonalarının inkişafı üçün siyasət həyata keçirilib. Tikinti sektorundan əlavə, dəyərin artımı hələ ki, mənfi zonadadır. Son illər sənaye zonalarına əhəmiyyətli investisiya yatırımları olub. Bu günədək ölkədə 510-dan çox investisiya təşviqi sənədi verilib. Dövlət investisiyalarına gəldikdə, 2022-ci ilin ilkin büdcə layihəsində bu istiqamətə əsaslı vəsait qoyulub. Prezidentin şəxsi təşəbbüsü nəticəsində bu sahəyə ayrılan vəsait artırılıb. Bu da investisiyaların həcminin artırılmasına öz təsirini göstərəcək. Cari ilin 10 ayında qeyri-neft ixracının həcmində də artım müşahidə edilib".

**"Strategiyanın maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin həcmi 20 milyard manata yaxındır"**

*İqtisadiyyat nazirinin sözlərinə görə, 2022-2026-cı illər üçün sosial strategiya sənədi hazırlanıb və təqdim edilib:* "Başlıca çağırış ölkə iqtisadiyyatının neftdən asılılığını sıfıra endirməkdir. Bunun üçün iqtisadiyyatda adekvat mühit yaradılması nəzərdə tutulur. Məhz bu ideologiyadan çıxış edərək cari ildə Baş nazirin rəhbərliyi altında yaradılmış işçi qruplarda yüksək səviyyəli yerli və beynəlxalq ekspertlərin iştirakı ilə müzakirələr keçirilib. Bunun üçün ölkə iqtisadiyyatının bütün sahələrində strateji hədəflər və bu hədəflərə çatmaq üçün plan müəyyən edilib. Strategiyanın maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin həcmi 20 milyard manata yaxındır. Növbəti ilin dövlət büdcəsi yeni strateji ilin ilk büdcəsidir".

**"DSMF-nin büdcəsinin 80 faizi sosial sığorta haqları hesabına formalaşacaq"**

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, məcburi dövlət sosial sığorta haqları üzrə növbəti ildə çox böyük artım gözlənilir:** "Bunun həcmi 18 faizə qədərdir. Bundan irəli gələrək dövlət öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait azaldılır. DSMF-nin büdcəsinin 80 faizi sosial sığorta haqlarının yığımı hesabına formalaşacaq. Sosial sığorta haqlarının artmasında İqtisadiyyat Nazirliyi, vergi orqanları və digər bizim qurumlarımızın əlaqələndirilmiş işinin çox ciddi payı olub".

*Sahil Babayev bəyan edib ki, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərdə 46 faiz artım gözlənilir. Nazir bildirib ki, bunlar dəfn, 3 yaşına çatanadək uşaqlar və hamilələr üçün olan vəsaitlərdir:* "Dövlət Sosial Müdafiə Fondu tərəfindən 66 xidmət artıq elektronlaşdırılıb. Paralel olaraq bütün ölkə üzrə fərdi uçot sistemi tam şəkildə mərkəzləşdirilib. Bundan başqa, Fond tərəfindən ölkə üzrə məhkəmə prosesində olan işlər mərkəzləşdirilib. Bu istiqamətdə görülən işlər sayəsində uduzulmuş işlərin sayı 96 faiz azalıb. Məbləğ olaraq da 97 faiz azalma baş verib. Saxta pensiya işlərinin maliyyələşdirilməsi və s. kimi halların qarşısı artıq tam şəkildə alınmaqdadır. Hazırda ölkə üzrə sosial xərclərin təyinatı mərkəzləşdirilir. Burada tək pensiyalardan söhbət getmir. Arxiv sənədlərinin mərkəzləşdirilməsi çərçivəsində də yüksək məbləğli saxta pensiya işlərinin hamısı tam ləğv edilir. Artıq 16 rayon üzrə ünvanlı sosial yardım üzrə yoxlamalar tam mərkəzləşdirilib. İlin sonunadək bu proses 46 rayonda həyata keçiriləcək".

**"Büdcə qanunvericiliyinin təkmilləşdirilməsinə ehtiyac var"**

**Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, növbəti ilin dövlət büdcəsinin gəlirləri əvvəlki illərdən çox proqnozlaşdırılıb:** "Potensiala yenidən baxılmasının zəruriliyi Hesablama Palatasının rəyində qeyd edilib. Vergi Məcəlləsinə ediləcək dəyişikliklər və digər dəyişiklikləri nəzərə alaraq, vergi və gömrük daxilolmalarında risklərin olmayacağı qənaətindəyik. Hesablama Palatası tərəfindən aparılan təhlillərdə işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində göstərilən xərclər dəstəklənib. 2022-ci ilin dövlət büdcə xərclərini xarakterizə edən növbəti meyl əməyin ödənişi bölməsinin ən böyük göstərici olaraq proqnozlaşdırılmasıdır". HP sədri deyib ki, digər vacib amil başa çatmamış layihələrin həcmidir: "Belə layihələrin sayı təqribən 207-dir. İcrası yarımçıq qalan layihələrin həcminin onlara ayrılan vəsaitdən dəfələrlə çox olacağı qənaətindəyik. Bu istiqamətdə işlərin görülməsini tövsiyə edirik. Eyni zamanda rəyimizdə büdcə qanunvericiliyində yeni anlayışların da qeyd olunmasını təklif etmişik. İnvestisiya layihələrinin səmərəliliyini qiymətləndirmək üçün sənəd də təqdim edilməyib. Vahid büdcə təsnifatının büdcə planlaşması, büdcə uçotu və onların təhlilinə uyğun gəlməməsinə görə çətinliklər yaranır. Vahid büdcə təsnifatının təkmilləşdirilməsinə ehtiyac var. Ötən illərin təcrübəsinə əsaslanaraq dövlət büdcəsinin növbəti proqnozlaşdırılmış kəsrinin daha az məbləğdə olacağını düşünürük".

**İsmayıl Qocayev**



# Lavrov Türkiyə ilə Belarus arasında uğursuz müqayisə aparıb

## Yaxın Şərqdən olan miqrantlar uzaq Belarusa məqsədyönlü şəkildə gətirilib

Aynurə Pənahqızı

**”Sergey Lavrov son mətbuat konfransında Türkiyə ilə Belarus arasında uğursuz müqayisə aparıb. O deyib ki, Avropa İttifaqı necə ki, miqrantlarla bağlı Türkiyəyə maliyyə ayırmışdı, eləcə də Brüssel zəhmət çəksin Belarusa maliyyə ayırsın. Birincisi, Suriyadan Türkiyəyə axın edən və oradan Avropaya miqrasiya etmək istəyənlərin sayı yüz minlərlə idi.”**

Bu sözləri politoloq Elxan Şahinoğlu deyib. Politoloq əlavə edib ki, Avropa İttifaqı Türkiyəyə maliyyə ayırmalıydı ki, Ankara miqrantları öz ərazisində saxlasın: ”Buna baxmayaraq, Brüssel Ankaraya vəd etdiyi maliyyənin cüzi hissəsini təqdim etdi. İkincisi, Türkiyəyə miqrantlar təbii yolla gəlmişdilər və Türkiyə üzərindən Yunanıstana, oradan da Almaniyaya və Böyük Britaniyaya köçmək istəyirdilər. Yaxın Şərqdən olan miqrantlar isə uzaq Belarusa məqsədyönlü şəkildə gətiriliblər. Bu, Moskva ilə Minskin birgə planı olub. Belarusdan Yaxın Şərqin bəzi ölkələrinə təyyarə reysləri artırılıb, miqrantlar Minskə gətirilib və sonra avtobuslarla Polşa sərhədinə çatdırılıblar.

Moskva və Minsk Brüsselin sanksiyalarına görə Avropa İttifaqına miqrant problemi yaratmaqla intiqam almağa çalışırlar. Bir neçə min miqrant Belarus-Polşa sərhədinə ilişib. Soyuqdan donan miqrantlar siyasi alət vasitəsinə çevriliblər. Polşa sərhədi açmasa və miqrantlar qış aylarında ağır şəraitdə yaşamaqda davam etsələr, bu, Avropa İttifaqının imicinə zərbə vuracaq. Digər tərəfdən miqrantlar Polşaya keçə bilməsələr, bu, Belarusun problemini artıracaq, çünki miqrantlar Belarus ərazisində ilişib qalacaqlar və Minsk onları ərzaqla, qalacaq yerlərlə təmin etmək məcburiyyətində qalacaq. Əslində Avropa sərhəddəki bir neçə min miqrantı qəbul edə bilər, sadəcə, Brüsseldə qorxurlar ki, bundan sonra Belarusdan gələn axının qarşısını ala bilməsinlər”.

# Görüş gündəmdədir, lakin Ermənistan razılaşmır

## İrəvan Moskvanın qurduğu masada əlini gücləndirməyə cəhd edir

İsmayıl Qocayev

**Üçtərəfli Bəyanatın imzalanmasının ildönümü ilə əlaqədar Rusiya, Azərbaycan və Ermənistan arasında hər hansı təmas nəzərdə tutulmur. Bu barədə noyabrın 9-da keçirdiyi brifinqdə Kremlin sözçüsü Dmitri Peskov məlumat verib.**

Peskov görüşlə bağlı konkret anlaşmanın olmadığını söyləyib. Kreml sözçüsü qeyd edib ki, Bakı və İrəvan müxtəlif səviyyələrdə əməkdaşlığı davam etdirirlər. Xatırladaq ki, bu həftə Prezident İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyanın videokonfrans formatında görüşü gözlənilirdi. Lakin Paşinyan Peskovun bununla bağlı əvvəlki açıqlamasına ”9 noyabrda görüş keçirilməyəcək” cavabını verdi. Peskovun sonuncu açıqlaması Ermənistanın ümumiyyətlə görüşdən yayındığını deməyə əsas verir.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında bildirib ki, Peskovun əvvəlki açıqlamasına korrekt etməsi o deməkdir ki, görüş gündəmdədir, lakin Ermənistan razılaşmır.** Analitik vurğulayıb ki, üçtərəfli görüşün iki gündəmi var, kommunikasiyanın açılması və sərhədin delimitasiyası məsələsinin müzakirə edilməsi: ”Mümkündür ki, kommunikasiyaların açılması qrafiki təsdiq edilsin və sərhədin delimitasiyasının hansı xəritələrə əsasən aparılması razılaşdırılsın. İrəvan kommunikasiyanın açılmasına qarşı deyil, Paşinyan sonuncu müsahibəsində də bunu təsdiq etdi. Razılaşdırılmayan məsələ sərhədlə bağlıdır və istisna deyil ki, problem hansı ilin xəritəsinin əsas götürülməsi üzərində yaranır. Üçtərəfli görüşə razılaşmayan Paşinyanın müdafiə nazirini Qarabağa göndərməsi də İrəvanın istəyinə nail olmaq üçün etdiyi gediş hesab oluna bilər və burada iki məqsəd var. Birincisi, Rusiyanın vasitəçiliyi ilə əldə olunan mövcud stabilliyi pozur. Bununla üçtərəfli masada maraqlarının təmin edilməsi üçün Moskvaya mesaj verir. İkincisi, Qarabağda separatçı-terrorçu rejimin qondarma ”müqəddəratını” aktual olaraq saxlayır. Paşinyan ”sərhəd, kommunikasiya və Qarabağ mövzusunun bir-birindən ayrı məsələ” olduğunu açıqladı. Sərhəd-kommunikasiya məsələsinin əsas gündəm olduğu vaxt ”Qarabağ iddiasını” da ayrı istiqamət kimi aktuallaşdırır. Paşinyanın bu gedişləri ABŞ Dövlət katibinin köməkçisi Erika Olsonun regiona səfəri fonunda etməsi də təsadüfi deyil. İrəvan Vaşinqtonun bölgəyə müdaxilə istəklərindən həm ”Qarabağ məsələsi” üçün istifadə etməyə, həm də Moskvanın qurduğu masada əlini gücləndirməyə cəhd edir. Burada Karapetyanın Qarabağa səfərinə Azərbaycan Müdafiə Nazirliyinin cavabı diqqət çəkir. Azərbaycanın hərbi rəhbərliyi xəbərdarlıq edir”.



“Paşinyanın bu gedişləri ABŞ Dövlət katibinin köməkçisi Erika Olsonun regiona səfəri fonunda etməsi də təsadüfi deyil”

**A.Nərimanlı bəyan edib ki, baş verənlər Azərbaycan sərhədləri daxilində və sərhəddə yeni təxribatlar, yeni gərginlik vəd edir:** ”Kəlbəcər istiqamətində törədilən təxribat da bunu təsdiqləyir. Bu o deməkdir ki, Ermənistan delimitasiya prosesinə mane olmaq və ən azı prosesdə öz maraqlarını təmin etmək üçün həm sərhəddə, həm də Qarabağda yeni gərginlik yaratmaq niyyətindədir”.

# Rusiya gərginliyin artmasında maraqlıdır

## Moskva və İrəvan məcburiyyət qarşısında qoyulmalıdır

İsmayıl Qocayev

**Ermənistan prezidenti Armen Sarkisyan ”Arqument i faktı” qəzetinə müsahibə verib. Qarabağdakı rus hərbçilərinin fəaliyyətini yüksək qiymətləndirən dövlət başçısı buna görə rəsmi Moskvaya minnətdarlıq edib. O, həmçinin bildirib ki, sülhməramlılar Qarabağdan çıxmamalı, ərazidə daimi qalmalıdırlar. Çünki bu, regional sabitlik üçün əsas təminatdır.**

Sülhməramlıların Qarabağda uzun müddət qalması, şübhəsiz, Ermənistanın ürəyincədir. Bu, Rusiyanın da maraqlarına cavab verir. Rus hərbçilərinin Qarabağdan çıxmasına dörd il qaldığı vaxtda Moskvanın həmin müddəti uzatmaq üçün müxtəlif addımlar atması da gözləniləndir. Hətta istisna deyil ki, Sarkisyanın sözügedən bəyanatının sifarişi Kremldən verilib. Ancaq prezidentin fikirləri daxili auditoriyaya da hesablana bilər.

**Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı ”Şərq”ə açıqlamasında bildirib ki, üçtərəfli Bəyanatın altında imzası olan ölkələrin öz üzərinə götürdükləri öhdəliklərin icra olunması ciddi müzakirə edilməlidir.** Professorun sözlərinə görə, Rusiyanın regionla bağlı planlarına diqqət yetirmək lazımdır: ”Rusiya Qarabağda hərbi varlığını qorumaq üçün münaqişə və gərginliyin artmasında maraqlıdır. Ona görə də ötən bir il ərzində Qarabağda gərginlik azalmaq əvəzinə, daha da artıb. Rusiya sülhməramlıları səlahiyyətlərindən dəfələrlə kənara çıxıblar. Nəzarət etdikləri ərazilərdə erməni silahlı birləşmələrinin təmizlənməsini qəsdən həyata keçirmirlər. Laçın dəhlizi ilə istənilən adam Qarabağa girib-çıxır ki, bu məqam daim gərginliyə səbəb olacaq. Ermənistanın da üçtərəfli Bəyanatın şərtlərinə əməl etməməsi Rusiyanın mövqeyindən qaynaqlanır. Əlbəttə, Ermənistan da istəyər ki, Rusiya həmişə bölgədə olsun. Hətta Xankəndi və digər ərazilərin gələcəkdə Rusiyaya verilməsi kimi sərsəm bəyanatlar səsləndirilir, planların olduğu deyilir”.



“Xankəndi və digər ərazilərdə dövlət suverenliyimizi bərpa etmək prosesinə start verməliyik”

Q.Çaxmaqlı vurğulayıb ki, qalib ölkə tələblərini açıq səsləndirməli, Moskva və İrəvanı məcburiyyət qarşısında qoymalıdır: ”Xankəndi və digər ərazilərdə dövlət suverenliyimizi bərpa etmək prosesinə start verməliyik. Əks təqdirdə ermənilər bizim torpaqlarımızda Rusiyanın yardımı ilə möhkəmlənəcək. Keçmiş iddialarını ortaya qoyaraq məsələni beynəlxalq müstəviyə çıxarmağa cəhd edəcəklər. ATƏT-in Minsk qrupunun fəallaşmasının şahidiyik. Bizə bir şox şeyləri yenidən diktə etməyəcəkləri nə məlumdur ki? Bunların olmaması üçün qabaqlayıcı tədbirlər görülməlidir”.

# Bütün ərzaq məhsulları bahalaşır

## Nazirlər büdcənin kəsirlərindən, deputatlar isə xalqın dərdindən danışdılar

**”Büdcə gəlirlərinin əsasını yenə də neft amili təşkil edib. Bu, indiki mərhələdə riskləri kifayət qədər artıracaq”. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ”2022-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı komitə sədrinin müavini Əli Məsimli deyib. Deputat bildirib ki, büdcə zərfində kölgə iqtisadiyyatı ilə mübarizənin davam etdirilməsi və ədalətli rəqabətin formalaşdırılması üçün işlərin davam etdiriləcəyi qeyd olunub:**

”Bəs növbəti 2022-ci ildə bu istiqamətlərdən nə qədər gəlirin daxil olacağı büdcədə niyə qeyd olunmayıb? 2020-ci il müharibə şəraitində icra olunan büdcə ili idi. Amma artıq biz yeni ilə iqtisadi artımın sürətləndiyi bir vəziyyət ilə daxil olmaqdayıq. Orta müddətli xərclər çərçivəsində büdcə ilə bağlı çatışmazlıqların aradan qaldırılması üçün Maliyyə Nazirliyinin əlavə tədbirlər görməsinə ehtiyac var. Digər məsələ büdcənin kəsiri ilə bağlıdır. Burada yeni məqam nəzərə alınıb. Büdcənin maliyyələşdirilməsində aktiv borclanma məsələsi zərfdə əksini tapıb. Mən balanslı büdcənin əleyhinə olmuşam. Bu istiqamətdə qiymətli kağızlar bazarının artırılmasının tərəfdarıyam. 2021-ci ildə 3 milyard manatdan artıq kəsir proqnozlaşdırılmışdı. 2022-ci ilin də büdcəsi təqribən ona uyğun olacaq. Büdcənin kəsiri kifayət qədər yuxarı olanda inflyasiya real olur. Əgər vahid xəzinə qalığından gələn vəsait büdcə kəsirini 2022-ci ildə ödəməyə qadirdirsə, niyə kütləvi olaraq borclanmaya gedirik? Əgər büdcənin xərcləri ayrı-ayrı maddələr üzrə bölünübsə, hazırlanan strategiyadan irəli gələn xərclər hansı vəsait hesabına maliyyələşəcək?”. Ə.Məsimli bəyan edib ki, Milli Məclisin büdcəyə nəzarətinin gücləndirilməsi üçün ciddi tədbirlər görülməlidir.

**“Vergi güzəştlərinin strukturuna baxmağa ehtiyac var”**

**Millət vəkili Vahid Əhmədov vurğulayıb ki, ”Dövlət rüsumu haqqında” qanunda çox ciddi dəyişikliklər getməlidir.** Onun sözlərinə görə, rüsumların çoxu ərzaq məhsulları ilə bağlıdır. Bu da ümumi bazarda qiymət artımına təsir edir: ”Qanunların Milli Məclisdə müzakirəsi zamanı deputatların səsləndirdiyi təkliflər nəzərə alınmalıdır. Büdcəyə vergi və gömrük daxilolmaları xətti ilə çox böyük daxilolmalar gəlir. Dövlətin nəzarətində olan qurumların vergidən və rüsumdan azad olunmasına nə ehtiyac var? Biz uzun illərdir deyirik ki, dövlət qurumlarının çoxu özəlləşdirilməlidir”. Deputat qeyd edib ki, vergi güzəştlərinin strukturuna baxmağa ehtiyac var: ”Biz indi dövlət rüsumuna dair qanunu qəbul edəndə qeyd etdik ki, bir sıra dövlət qurumlarına cərimələrdən ayırmalar olur. Buna artıq son verməyin vaxtı çatıb. Cərimələrdən daxil olan vəsaitin hamısı büdcəyə daxil olmalıdır. Büdcənin şəffaflığının təmin edilməsi üçün ciddi addımlar atılmalıdır. Hesab edirəm ki, kölgə iqtisadiyyatının, korrupsiya və rüşvət hallarının aradan qaldırılması üçün Hesablama Palatası daha sərt addımlara getməlidir”.



Vahid Əhmədov deyib ki, gündəlik tələbat mallarına 18 faiz ƏDV-nin tətbiq edilməsi səhvdir

**“Əhalini ən çox narahat edən məsələ qiymət artımıdır”**

**Vahid Əhmədov gündəlik tələbat mallarına 18 faiz ƏDV tətbiq edilməsinin əleyhinə olduğunu söyləyib:** ”Dövlət zəmanəti ilə verilən kreditlərin qaytarılması, dövlət tərəfindən ödənilməsinin səbəbləri büdcə zərfində əksini tapmalıdır. Dövlət borcu ilə əlaqədar rəqəmin kəskin azaldılması ondan xəbər verir ki, Prezidentin imzaladığı Fərman uğurla həyata keçirilir. DSMF və İşsizlikdən Sığorta Fondu ilə bağlı Sahil Babayev çıxış etdi. İşsizlikdən Sığorta Fondunun xərclərinə hər il qənaət edilir. Bu vəsaitə niyə qənaət edilir? Bu vəsaiti xərcləmək lazımdır. Bunu nəzərə almağınızı xahiş edirəm. Bu vəsaiti əlillərə, qocalara, xəstələrə xərcləmək lazımdır. Bununla bağlı hansısa qanuna dəyişiklik edilməlidirsə, edək. Bu il ilk dəfə müsbət hal odur ki, Dövlət Neft Fondundan transfertlər azalır. Bu, çox müsbət addımdır”. Deputat qeyd edib ki, peşə təhsilinin inkişaf etdirilməsi üçün ciddi addımlar atılmalıdır: ”Digər tərəfdən, burada toxunuldu ki, cari xərclərin artırılması nəzərdə tutulur. Cari xərclərin miqdarı gələn ildə də kifayət qədər artırılır. Büdcə daxilində də dəyişikliklər edilir. Bunun üçün ”Büdcə sistemi haqqında” qanunda hədd müəyyən edilməlidir. Əhalini ən çox narahat edən məsələ qiymət artımıdır. Biz maaşları, pensiyaları nə qədər artırsaq da, qiymət artımını qarşılaya bilməyəcəyik. Qiymət siyasətində müəyyən məsələləri həll etməliyik. Digər tərəfdən, bütün məhsullara 18 faiz ƏDV qoyuruq. Gündəlik tələbat mallarına niyə 18 faiz ƏDV tətbiq etməliyik? Beynəlxalq təcrübə var. Bu məsələni bir neçə dəfə qaldırmışıq. Xahiş edirəm bu məsələyə diqqət yetirəsiniz”.

**“Yaşayış minimumu və orta aylıq əməkhaqqına yenidən baxılmalıdır”**

**Millət vəkili Sabir Rüstəmxanlı isə deyib ki, büdcənin müzakirə sistemi dəyişdirilməlidir.** Onun fikrincə, komitələrdə müzakirələrlə bağlı ümumi rəy hazırlanmalı və təqdim olunmalıdır: ”Dövlət və hökumət nümayəndələrinin, deputatların təkrar çıxışları olmamalıdır. Yanacağın qiymətinin qalxması ilə əlaqədar bütün ərzaq məhsullarının da qiyməti qalxır. Həm yaşayış minimumu, həm də orta aylıq əməkhaqqı məsələsinə yenidən baxılmalıdır”. S.Rüstəmxanlı yeni strukturların yaranmasına da toxunub: ”Büdcədən maliyyələşən təşkilatların sayını artırmaqla məşğuluq. Biz bu sayı azaltmalıyıq”.

**“Daxili dövlət borcları ilə bağlı ödəniş 232 milyondan çoxdur”**

**Millət vəkili Qüdrət Həsənquliyev dövlət müəssisələrinin özəlləşdirilməsini təklif edib:** ”Büdcə sistemi haqqında qanunun 21-ci maddəsinə əsasən, Milli Məclis və Hesablama Palatası büdcə zərfinin icrasına nəzarəti həyata keçirməlidir. Amma faktiki olaraq Milli Məclisin belə səlahiyyəti yoxdur. Beynəlxalq maliyyə institutları büdcə proqnozlarında kənarlaşmaların olmamasını əsas amillərdən biri hesab edirlər. Bizim büdcədə bu qədər fərqin olması başa düşülən deyil. Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların artıq proqnozlaşdırılacağı göstərilir. Burada sözsüz ki, kölgə iqtisadiyyatına qarşı mübarizə, şəffaflıq tədbirləri öz rolunu oynayır. Amma fərqin bu qədər artıq olması anlaşılan deyil. Digər tərəfdən, dövlət borcu ilə bağlı məsələyə də diqqət çəkmək lazımdır. Daxili dövlət borcları ilə bağlı ödəniş 232 milyondan çoxdur. Xarici dövlət borclarını başa düşmək olar. Daxildə isə borclanmanı qiymətli kağızlar bazarına töhfə verəcəyi ilə əlaqələndirmək nəticə verə bilməz. Dövlət müəssisələrindən vergi daxilolmalarının miqdarı çox azdır. Necə olur ki, özəl müəssisələrdən daxilolmalar çox olur, amma dövlət müəssisələrindən daxilolmalar az olur? Ona görə də düşünürəm ki, bu qurumlar özəlləşdirilməlidir. Bu islahatlar dərinləşdirilməlidir. Böyük islahatlara ehtiyac var. Mütləq böyük özəlləşdirməyə getmək lazımdır ki, iqtisadiyyatda rəqabət mühiti güclənsin”.

**“Bəzi icra başçılarının xoşagəlməz hərəkətləri nəticəsində yararlı torpaqlar azalıb”**

**Millət vəkili Ziyad Səmədzadə bildirib ki, Azərbaycanda su ehtiyatları ilə əlaqədar komissiya yaradılıb. Amma yaxşı olar ki, su problemi dərindən təhlil edilsin:** ”Bir sıra icra başçılarının xoşagəlməz hərəkətləri nəticəsində Azərbaycanda otlaq sahələri, kənd təsərrüfatına yararlı torpaqlar azalıb. Su balansı və məhsulun su tutumu məsələsinə diqqəti artırmalıyıq. Dünyanın bütün ölkələrinin su ehtiyatlarını təhlil edirik, çünki ehtiyatlarımız kənardan gəlir. Kənd təsərrüfatını inkişaf etdirməkdən, əkin sahələrini genişləndirməkdən danışırıq. Su ehtiyatlarımız buna imkan verəcək, ya yox?!”.

**“Dövlət Məşğulluq Agentliyi ilə Dövlət Statistika Komitəsinin rəqəmləri uzlaşmır”**

**Deputat Erkin Qədirli qeyd edib ki, dövlət müəssisələrində vergi daxiolmalarında bu il azalma olub. İri dövlət şirkətləri dövlət büdcəsinə dividend ödəməyə maraq göstərmir:** ”Onlar bazarda özlərinə rəqib görmürlər. Bu, xidmətin qiymətinə də təsir göstərir. Ümumiyyətlə, xidmətin keyfiyyəti qiymətlə uzlaşmır. Maliyyə Nazirliyi bununla bağlı strateji baxış hazırlayırmı? Özəlləşdirmə ilə bağlı işlərə nə vaxt gediləcək? Hesabatda göstərilib ki, Azərbaycan dəmir yollarının 22 min işçisi var və audit şirkəti bunu 6 minə endirməyi təklif edir. Bu isə nə qədər işçinin işsiz qalmasına səbəb olacaq. Dövlət Məşğulluq Agentliyinin rəqəmləri ilə Dövlət Statistika Komitəsinin rəqəmləri uzlaşmır. Bu da hesablamalara çox böyük təsir edir. Bu rəqəmlərin uyğunlaşdırılması ilə bağlı işlər görülməlidir.

**İsmayıl Qocayev**

# Ermənistan biabırçı kapitulyasiya ilə diz çökdü

## 10 noyabr bəyanatı düşmənin özü haqqında yaratdığı mifi də darmadağın etdi



**Prezident İlham Əliyev, Rusiya rəhbəri Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanatın imzalanmasının ildönümu tamam oldu. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başladı.**

44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Suqovuşanı, Cəbrayıl şəhərini, Xocavənd rayonunun Hadrut qəsəbəsini, Füzuli, Zəngilan və Qubadlı şəhərlərini, noyabrın 8-də isə Şuşanı işğaldan azad etdi. Ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər düşməndən təmizləndi. Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan biabırçı məğlubiyyətini qəbul etmək məcburiyyətində qaldı. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi arasında Bəyanat imzalandı. Xalqa müraciət edən dövlət başçısı üçtərəfli Bəyanatın tarixi əhəmiyyəti olduğunu bildirdi: "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaq". Prezident qeyd etdi ki, bəyanat bizim şanlı qələbəmizdir: "Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm". Azərbaycan lideri münaqişənin bitdiyini dedi: "Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır". Üçtərəfli Bəyanata əsasən, münaqişə zonasında atəş və bütün hərbi əməliyyatlar dayandırıldı. Qarabağa Laçın dəhlizi boyu Rusiyanın 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirildi. Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək, bununla belə, Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi Rusiya sülhməramlı kontingentinin nəzarəti altına verildi. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yaradıldı. Bəyanata əsasən, noyabrın 20-də Ağdam şəhəri, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu işğaldan azad edildi. Azərbaycan bu rayonların işğaldan azad edilməsinə heç bir itki vermədən nail oldu. Ermənistan təslimçi sülhə imza ataraq Zəngəzur dəhlizinin və digər kommunikasiyaların açılması ilə bağlı öhdəlik götürdü.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə vurğulayıb ki, üçtərəfli bəyanat Ermənistanın biabırçı kapitulyasiyası idi. Analitikə görə, Bəyanat üç rayonun (Ağdam, Kəlbəcər, Laçın) döyüşsüz qaytarılması isə Azərbaycanın əlavə itki vermək risklərini aradan götürdü. Onun sözlərinə görə, Bəyanat Azərbaycan Ordusunun apardığı uğurlu hərbi əməliyyatların məntiqi davamı idi:** "Bu sənəd postmünaqişə periodunda hərbi gücün yaratdığı diktənin diplomatiyaya keçidinə zəminlər yaradan strategiyanın başlanğıcı idi. Türkiyə bəyanatın tərəflərindən olmasa da, həmin sənəddə keçən bir cümləni Bakı-Ankara hərbi əməkdaşlığının güclənməsini şərtləndirən amil kimi dəyərləndirə bilərik. Söhbət həmin bəyanat əsasında Ağdamda yaradılan Atəşkəsə Nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzindən gedir. Bununla Türkiyə rəsmi qaydada mübahisəli məsələlərin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayır. Ankaranın mövqeyində Qarabağ məsələsinin prioritet olmasının indikatorları isə göz önündədir. Ankaradan verilən bəyanatlar, Ermənistana sülh çağırışları prioritetlər sırasındadır. Türkiyə şirkətlərinin Qarabağda yenidənqurma işlərində iştirakı Ankaranın Qarabağın iqtisadi təhlükəsizliyinə də zamin durduğu anlamını verir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan postmünaqişə dövründə Şuşaya səfər etdi, burada Prezident İlham Əliyevlə birgə Şuşa Bəyannaməsi imzalandı. Bir neçə ay sonra isə Türkiyə lideri Füzuli Beynəlxalq Hava Limanının açılışına qatıldı, həmin gün Zəngilana da səfər etdi. Ankara-Moskva körpüsündə təmaslarda Türkiyə Azərbaycanla strateji müttəfiqlik xarakterinin ruhuna uyğun olaraq Bakının maraqlarını önə çıxarır. Bu isə Bakı-Ankara-Moskva xəttində müştərək maraqların yaranmasına səbəbiyyət verən tendensiyadır".

### "Yeni siyasi reallıqda Azərbaycan-Türkiyə-Rusiya üçlük formatı ön plana çıxdı"

**A.Kərimov vurğulayıb ki, üçtərəfli bəyanatın 9-cu bəndinin, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasının icrası üçün əlavə bir sənədin hazırlanması zərurətini ortaya çıxarırdı**: "Buna görə də, Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri arasında 2021-ci ilin 11 yanvarında növbəti üçtərəfli bəyanata imza atıldı. 11 yanvar bəyanatı 10 noyabr bəyanatının iqtisadi aspektlərinin tam gücü ilə işləməsinə stimul verən sənəddir. Ancaq bu bəyanat da Azərbaycanın əlini gücləndirdi, belə ki, 2021-ci ilin başlanğıcından etibarən həmin sənədin müddəaları Bakıya hərbi-siyasi faydalar gətirən faktora çevrildi. Bakı İrəvanın etirazlarına baxmayaraq postmüharibə dövründə regionun yeni şəkilləndirilməsinin təməl daşı hesab olunan Zəngəzur dəhlizinin reallaşmasında tündləşdirici rənglər qarışdırılmaması üçün mühüm addımlar atdı. Söhbət Azərbaycanın Ermənistanla sərhədlərin müəyyənləşməsini hərbi prioritetlər sırasına daxil etməsindən gedir. Azərbaycan Ordusunun Ermənistanla sərhəddə strateji yüksəkliklərdə mövqelənməsi, Gorus-Qafan yolunun 21 kilometrinin Azərbaycan ərazisindən keçməsi, bu ilin yayında Naxçıvanda böyük əhəmiyyət kəsb edən möhkəmlənmə koridorun işləməsi üçün Bakının şərtlərinin həyata keçirilməsidir. Bu koridorun açılması məsələsində Türkiyə ilə yanaşı Rusiya da maraqlıdır, yəni Zəngəzur dəhlizi Bakı-Ankara-Moskva üçbucağında ortaq iqtisadi maraqlar yaradan platforma rolunu oynayır.

10 noyabr bəyanatına əsasən, Rusiya sülhməramlı qüvvələri Azərbaycanın bir sıra ərazisinə müvəqqəti (5 il müddətinə) yerləşdirildi. Ancaq bu, heç də o mənaya gəlmir ki, Azərbaycan həmin əraziləri öz yurisdiksiyası nəzarətindən çıxarır. Azərbaycan siyasi cəhətdən mövqelərini möhkəmləndirmək üçün bu ilin iyulun 7-də tarixi sayıla biləcək bir sənədə imza atdı. Prezident İlham Əliyevin həmin tarixli fərmanına əsasən, Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları Qarabağ İqtisadi Rayonunun tərkibinə, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə Şərqi Zəngəzur iqtisadi rayonunun bölgüsünə daxil edildi".

**Ekspert qeyd edib ki, bununla da sülhməramlıların müvəqqəti yerləşdirildiyi ərazinin Azərbaycanın yurisdiksiyasında olduğu prezidentin fərmanında əksini tapdı:** "10 noyabr bəyanatından sonrakı proseslər onu göstərdi ki, həmin üçtərəfli bəyanatın əksər bəndləri yerinə yetirildi. İrəvan buna mane olmağa çalışsa da, onun mövqeyindəki qeyri-konstruktivlik öz başında partladı. Bəyanatın 6-cı maddəsində bildirilir ki, Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. Bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Laçın dəhlizi Laçın şəhərinin içindən keçir. Laçın şəhəri o dəhlizin ortasında qalır. Azərbaycan isə təklif edir ki, yeni bir dəhliz inşa edilsin. Bunun üçün üç il müddət nəzərdə tutulub. Yeni dəhlizin parametrləri müəyyən olunandan sonra Laçın dəhlizi Laçın şəhərini əhatə etməyəcək. Hələlik bu məsələ ətrafında açıq suallar qalmaqdadır. Ancaq Bakının əli gücləndikcə bunu da reallaşdıracağına əminlik çoxdur. Açıq sualların qalması isə Ermənistanın nümayiş etdirdiyi qeyri-müəyyən davranışlarla əlaqədardır. Digər açıq qalan məsələ isə bəyanatın 4-cü maddəsinin icrasında yaranan problemlərdir. Belə ki, sülhməramlıların nəzarət zonasında qalan erməni separatçılar (söhbət hərbçilərdən gedir) ərazidən çıxmaq əvəzinə həyasız addımlara yol atırlar. Bu azmış kimi, ara-sıra hərbi təxribatlara da yol verirlər. Amma Azərbaycan Ordusunun adekvat cavab tədbirləri ilə yerlərində otuzdurulurlar. Separatçıların mənəvi dünyasındakı revanşizm duyğularını qidalandıran səbəblərdən biri də Rusiya sülhməramlı qüvvələrinin mandat və funksiyalarından kənar presedentlər yaratmasıdır. Bu, zamanla Bakının narazılığına səbəb olsa da, hazırda Bakı sülhməramlıların fəaliyyətinin ümumi cizgisindən razıdır".

**A.Kərimova görə, Qazaxın yeddi kəndinin və Naxçıvandakı Kərki kəndinin geri qaytarılması açıq qalmış məsələlərdəndir:** "Düzdür, bu məsələ üçtərəfli bəyanatda əksini tapmayıb, lakin həmin mövzuların danışıqlar predmetində olduğunu göstərən məlumatlar tirajlanır. Rusiya qədimə söykənən konsepsiyaları əlində rəhbər tutur. Moskva genişmiqyaslı toqquşmalarda maraqlı olmasa da, mübahisəli məsələlərin qalmasında maraqlı tərəf kimi görünür. Mübahisəli məsələ Rusiyanın təsir imkanlarının həyata keçirilməsi üçün mənbədir, Kreml bu mənbələrdən məhrum olmaq istəmir. Bununla belə, hazırda Rusiya Azərbaycanla münasibətlərin inkişafına önəm verir, Moskva Bakı ilə maraqlarını uzlaşdırır. Bu məsələdə Türkiyə amilinin də rolu danılmazdır. Nəticə etibarı ilə 10 noyabr bəyanatı sülh müqaviləsinin rüşeymi rolunu oynadı. Bəyanatdan sonra Azərbaycan Ermənistan üzərində hərbi-siyasi qüdrətini yeni fazaya daxil etdi. Yeni siyasi reallıqda Azərbaycan-Türkiyə-Rusiya üçlük formatı ön plana çıxdı. 10 noyabr bəyanatı Ermənistanın özü haqqında yaratdığı mifi darmadağın etdi. Bundan sonra Ermənistanda ictimai-siyasi, intellektual böhran dərinləşərək uçuruma yuvarlandı".

**İsmayıl Qocayev**

# Erməni generalın Laçın dəhlizinə keçməsi həyasızlıqdır

## Partiya rəhbəri bildirib ki, Azərbaycan tərəfi məsələyə artıq son nöqtəni qoymalıdır

**Ermənistanın Müdafiə naziri general-mayor Arşak Karapetyan noyabrın 6-dan 8-nə kimi Qarabağda səfərdə olub. Arşak Karapetyan Qarabağa səfəri çərçivəsində burada olan erməni ordusunun tör-töküntüsü ilə görüşüb və onların döyüş hazırlığını yoxlayıb. Erməni əsgərlərini mükafatlandırıb.**

Müəmmalı olan generalın bu səfərə gəlməsinə və Laçın dəhlizini keçməsinə kimin icazə verməsidir. Görünür, Rusiya sülhməramlıları bu dəfə də erməni məramlı olduqlarını subut ediblər. Ermənistan müdafiə nazirinin Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfər etməsi və qondarma rejmin başçısı Araik Arutyunyanla görüşməsi onu göstərir ki, Ermənistana İkinci Qarabağ savaşı dərs olmayıb. Ona görə də təxribatçı fəaliyyətlərini ən üst səviyyədə davam etdirirlər. Digər məqam isə odur ki, Rusiyadan sülhməramlı fəaliyyəti həyata keçirən olmaz. Bu arada Azərbaycan Ordusunun Kəlbəcər rayonu Yellicə yaşayış məntəqəsi istiqamətindəki mövqelərinə yol çəkən mühəndis texnikaları atıcı silahlardan atəşə tutulub. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, bölmələrimiz tərəfindən dərhal adekvat cavab tədbirləri görülüb.



**Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli vurğulayıb ki, Ermənistan müdafiə nazirinin Azərbaycan ərazilərinə icazəsiz səfəri, Kəlbəcərdə yol çəkən mühəndis texnikalarının atəşə tutulması göstərir ki, Qarabağla bağlı baş verənlər çox qarışıq olsa da, nəticə olaraq bir hədəfə hesablanıb: - məğlubiyyətdən sonra diktə edilən şərtlərdən yayınmaq:** "Dövlət başçılarının üçtərəfli görüşünün Paşinyan tərəfindən təkzib olunması bunun bir göstəricisi idi. Görünür, bu görüş həqiqətən planlaşdırılmışdı. Hər halda Kremlə yaxın agentlik əsassız məlumatı bu cür tirajlamazdı. Hərçənd ki, biz bu görüşün olacağına şübhə ilə yanaşmışdıq. Çünki bu tarixdə ölkəmizdə Vətən müharibəsində qazanılan zəfərin ildönümünün olması, İrəvanda isə məğlubiyyətin ildönümü münasibətilə etirazların planlaşdırılması göstərirdi ki, görüş həmin tarixdə keçirilməyəcək. Bu azmış kimi müdafiə naziri Qarabağa səfər edir. Avtomatik sual yaranır, Laçın dəhlizinə yerləşən rus qüvvələri nə işə baxır? Missiyaları ermənilərin köçürülməsi, inşaat işlərinə yardım edilməsi idi, yoxsa təhlükəsizliyə təhdid yaradanları müşahidə etmək və qarşısını almaq?! Bu sual ritorikdir, bir ildi deyirik, cavabı yoxdur. Ardınca Peskovun "malalamaq" məqsədli bəyanatı səslənir. Bir neçə gün öncə görüşlə bağlı fikirlərinin əksini səsləndirir və Ermənistanın görüşdən yayındığı görüntüsünü verməyə çalışır. Lakin çox absurddur. Amerika kimi supergüc dövlətin baş edə bilmədiyi Rusiya Ermənistanla "dil tapa bilmir"? Bir ölkənin razı olduğu şərtlərə onun forpostu nə vaxtdan burun çevirə bilər?".

**Partiya rəhbəri bildirib ki, Azərbaycan tərəfi məsələyə artıq son nöqtəni qoymalıdır:** "Düzdür, Karapetyanın Qarabağa səfərinə Azərbaycan Müdafiə Nazirliyinin cavabı təqdirəlayiqdir. Cavabda qarşı tərəfə həm antiterror əməliyyatı ilə bağlı xəbərdarlıq edilir, həm də müharibədə məhv edilmiş erməni generallarının aqibəti xatırladılır. Dolayısı ilə, "bir də bizim torpaqlara gəlsəniz, taleyinizin nə olacağını düşünün" deyir. Ancaq bizimki artıq deməkdən keçib, zaman icra zamanıdır. Görüşdükləri məkanlar, tanış olduqları mühəndislik işləri onların başına yıxılmayınca, hələ çox karapetyanların səfərini mətbuat tirajlayacaq. Hələ çox "Kəlbəcər təxribatları" törədiləcək. Görünür, yumruğa öyrəşən başlarının yenə buna ehtiyacı var. Üstəlik, Rusiya Silahlı Qüvvələri bütün bunları görməzdən gəlirsə, biz də onların müvəqqəti yerləşdirildiyi ərazilərə nəzarəti ələ alıb, elə onlara da layiqli cavabımızı verməliyik".

**İsmayıl Qocayev**



# Ceyhun Bayramov Makronun müşaviri ilə görüşdü

## Azərbaycan-Fransa ikitərəfli münasibətlərin cari vəziyyəti müzakirə olunub

**Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov Fransa Respublikası Prezidentinin diplomatik müşaviri Emmanuel Bon ilə görüşüb.**

Bu barədə Azərbaycan XİN məlumat yayıb.

Görüşdə tərəflər post-münaqişə mərhələsində bölgədə mövcud olan cari vəziyyət və yeni reallıqlar ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov qarşı tərəfə post-münaqişə fazasına aid məsələlər-azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi, dağıdılmış ərazilərimizin bərpa edilməsi, regionda kommunikasiyaların açılması, Ermənistanla sərhədlərin delimitasiya və demarkasiyasının həyata keçirilməsi, Ermənistanla Azərbaycan arasında beynəlxalq hüququn norma və prinsipləri əsasında münasibətlərin normallaşdırılması, Azərbaycan tərəfindən bu istiqamətdə birtərəfli qaydada həyata keçirilən tədbirlər haqqında məlumat verib. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin olunmasına tərəfdar olduğu vurğulanıb.

Görüşdə, həmçinin Azərbaycan-Fransa ikitərəfli münasibətlərin cari vəziyyəti müzakirə edilib. Tərəflər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və siyasi dialoqun aktivləşməsinə hazırlığını və maraqlarını ifadə ediblər.



# İngilis və rus dilini bilməyənləri işə götürmürlər

## Millət vəkili bölgələrdəki işsizlikdən danışıb

**"Rayonların 95 faizində kitab mağazası yoxdur. Kəndlərin çoxunda xarici dil müəllimi yoxdur".**

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünənki iclasında millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyib. Onun sözlərinə görə, bütün idarə və qurumlarda tələb edirlər ki, ingilis və rus dilini bilməyən işçi işə götürülməsin: "O kənddə, rayonda yaşayan bu dili necə öyrənsin? İşsizliyin aradan qaldırılmasının da yolları tapılmalıdır. Yeni müəssisələr yaradılmalıdır. Bakıda neçə zavod bağlandı, onların metallarını belə satıblar. İşsizliyin ləğvi üçün yeni müəssisələrin qurulması vacibdir".

**Deputat Bakıda uşaq bağçalarının çatışmamasına da toxunub:** "İnsanlar uşağını bağçaya qoymaq üçün rüşvət verməyə məcbur edilir".

S.Rüstəmxanlı dövlət qurumlarında əhaliyə və millət vəkillərinə diqqətin artırılmasının vacibliyini də vurğulayıb: "Mən nazirliyə məktub göndərirəm, cavab gəlmir. Səfa müəllim (Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev - red.) göndərir, ona cavab gəlir. 125 deputatın yerinə Səfa müəllim məktub göndərə bilməz axı...".

**İsmayıl**

# "Artıq bütün vətəndaşların cəriməsi var"

## Fazil Mustafa BNA-nın fəaliyyətini tənqid edib



**"Bakı Nəqliyyat Agentliyinin cərimələrinin həddi-hesabı yoxdur".**

Bu barədə millət vəkili Fazil Mustafa deyib. Deputat bildirib ki, bir sıra məsələlərdə vətəndaşın vəziyyəti nəzərə alınaraq, addımlar atılmalıdır: "Rüsumlar və cərimələrin miqdarı kəskin formada artmaqdadır. Artıq bütün vətəndaşların cəriməsi var. Bu, yol infrastrukturunun düzgün qurulmamasının problemidir, cəriməsini isə vətəndaş ödəyir".

**F.Mustafa əlavə edib ki, binaların istiliklə təchizatı da bərbad vəziyyətdədir:** "Köhnə binaların zirzəmiləri qrunt suları ilə dolub aşır, onu təmizləmirlər. Müddəti bitmiş proqramlara dövlət büdcəsindən vəsait ayrılmamalıdır. Müddət qurtarıbsa, həmin layihələr maliyyələşmədən məhrum edilməlidir".

**İsmayıl**

# Kiçik bir səhv, ani qəzəb həyatı bitirir

## Vətən döyüşçüsünün "Tik-Tok" qurbanına çevrilməsi çox üzücüdür

**Məlahət Rzayeva**

**"Tik-Tok" can aldı. Həm də bir Vətən döyüşçüsünün. Hadisə ilə bağlı Baş Prokurorluq məlumat yayıb. Qeyd olunur ki, noyabrın 9-u saat 17 radələrində şəhər sakini 1991-ci il təvəllüdlü Natiq Ramazanovun aldığı xəsarət nəticəsində xəstəxanaya aparılarkən yolda ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Aparılmış araşdırmalarla müəyyən edilib ki, Natiq Ramazanov "Tik-Tok" sosial şəbəkəsində yazdığı nalayiq ifadələrlə əlaqədar şəhər sakini, 1982-ci il təvəllüdlü Əli Musayev ilə Nizami rayonu, Q.Qarayev prospektində görüşüb, bu zaman aralarında baş vermiş mübahisə zamanı sonuncu Natiq Ramazanova sağ budun yuxarı nahiyəsindən bıçaqla xəsarət yetirib və nəticədə o, xəstəxanaya aparılarkən yolda keçinib. Faktla bağlı Nizami rayon prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Əli Musayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

Lent.az-ın məlumatına görə isə bıçaqlanaraq öldürülən Natiq Ramazanov Zaqatala rayonunun Zəyəm kəndindəndir. O, 44 günlük Vətən müharibəsinin iştirakçısı olub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin məzunu olan N.Ramazanov hərbi xidmət vaxtı kursda iştirak edərək leytenant rütbəsi alıb. 2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayan ilk günlərdən Natiq könüllü müharibəyə yollanıb. Bölük komandiri kimi döyüşən Natiq Ramazanov Hadrut, Füzuli və Cəbrayılın işğaldan azad olunmasında qəhrəmanlıqlar göstərib. Ailəsinin dediyinə görə, Natiq evli olub. Onun iki yaşlı bir oğlu var imiş. N.Ramazanovun gələn ay yeni körpəsi dünyaya gələcəkmiş. O, dünən Zaqatalada torpağa tapşırılıb. Deməli, Vətən torpağını düşməndən azad etmiş əsgər paytaxtda, həm də Zəfər bayramını qeyd etdiyimiz günlərdə qətlə yetirilib. Erməni gülləsinin bata bilmədiyi döyüşçü "Tik-Tok" qurbanına çevrilib.






***"Hər bir vəziyyət üçün hüquqi yollar var. Şikayət olmadıqca, sosial şəbəkələrdə "at oynadanlar" daha da sərbəstləşir, məsuliyyətsiz hiss edirlər. Elə bilirlər ki, kimsə onların qarşısını ala bilməyəcək"***

Bir vaxtlar yeniyetmə və gənclər, çox zaman elə yaşlılar da internet klublarda vaxt keçirir, "Sobesednik", "Odnoklassnik" sosial şəbəkələrində yazışır, "yeni" dostlar, tanışlar tapırdı, sonra da elə bu "dostlar" arasında davalar, hətta qanlı bitən "razborka"lar olurdu. İndi hərənin əlində bir smartfon, "ağıllı telefon" var, sosial şəbəkələrdə fasiləsiz yazışır, foto, video paylaşır, kiminsə sözü digərinin boğazından "keçməyəndə" də söyüşə, təhqirə, nalayiq ifadələrə keçid edirlər.

Sosial şəbəkələrdə təhqirlərin, nalayiq ifadələrin, ictimai təhlükə daşıyan paylaşımların qarşısını almaq, zərərsizləşdirmək mümkün deyilmi?

**Hüquqşünas Ələsgər Məmmədli "Şərq"ə açıqlamasında baş vermiş hadisənin üzücü olduğunu dedi:**

- Əvvəla, onu deyim ki, Vətən müharibəsi iştirakçısının "Tik-Tok" qurbanına çevrilməsi çox üzücüdür. Problem təkcə sosial şəbəkələrlə bağlı deyil. İstər sosial şəbəkələr - virtual aləm olsun, istərsə də gerçək həyat, mübahisələr, münaqişələr baş verir. Bu hadisədə isə sosial şəbəkə gəncin ölümündə bir vasitə olub. İnsanlar arasında münaqişə virtual aləm üzərindən də baş tuta bilər, real həyatda, hansısa parkda, bağda, kafedə də. Heç kim münaqişədən sığortalanmayıb, amma hər bir insan bunu dərk edərək mümkün qədər soyuqqanlı olmağa çalışmalıdır. Unutmamalıdır ki, kiçicik bir səhv, ani qəzəb həyatın bitməsi ilə - bu, kiminsə ölümü, kiminsə həbsxana həyatına məhkum olması ilə nəticələnə bilər.

**Ə.Məmmədli qeyd etdi ki, sosial şəbəkələrdəki paylaşımlarda konkret şəxsə yönəlmiş təhqiredici ifadələr, şəxsin şərəf və ləyaqətinin alçaldılması varsa, hüquq-mühafizə orqanlarına müraciət etməkdə tamamilə haqlıdır:**

- Hər bir vəziyyət üçün hüquqi yollar var. İstənilən şəxs özünə qarşı təhqir, nalayiq ifadələr işləndiyi üçün Cinayət Məcəlləsinin 148-ci maddəsinə (müəyyən bəndlərlə) əsaslanaraq prokurorluğa müraciət edə bilər. Hər kəs bilməlidir ki, vətəndaşın hüquqları toxunulmazdır. Bilirsiz, şikayət olmadıqca, sosial şəbəkələrdə "at oynadanlar" daha da sərbəstləşir, məsuliyyətsiz hiss edirlər. Elə bilirlər ki, kimsə onların qarşısını ala bilməyəcək. Odur ki, belə hallar getdikcə yayğınlaşır. Vətəndaş konkret özünə qarşı, yaxud ictimai təhlükə, təhdid daşıyan, ictimai asayişə yönəlik hal görürsə, hüquq-mühafizə orqanlarına müraciət edə bilər. Bu, hamının haqqıdır.



# Mübarizə bitməyib

## Saakaşvili sağ qalmaq üçün qida qəbul edir

**Tbilisidə Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin binası qarşısında etiraz aksiyası keçirilir. İştirakçılar keçmiş prezident Mixeil Saakaşvilinin mülki xəstəxanaya köçürülməsini, azadlığa buraxılması və növbədənkənar parlament seçkilərinin təyin olunmasını tələb edirlər.**

Aksiyada etirazçılar və polis arasında qarşıdurma baş verib. Nəticədə bir neçə iştirakçı saxlanılıb və patrul polisi maşınları ilə ərazidən uzaqlaşdırılıb. Eyni tələbli aksiyalar Gürcüstanın Ədliyyə və Səhiyyə Nazirliklərinin qarşısında da təşkil olunub. Polis əməkdaşları canlı sədd yaradaraq binalara girişləri bağlayıblar. Tbilisidə müxtəlif dövlət qurumlarının qarşısında keçirilən aksiyalarda 46 nəfər inzibati qaydada saxlanılıb. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyindən bildirilib. Qeyd olunub ki, həmin şəxslər inzibati orqanların binalarına girişi bağlamaq və onların fəaliyyətlərini dayandırmağa cəhd ediblər. Xatırladaq ki, ötən gün Mixeil Saakaşvilinin görüntüləri ictimaiyyətə yayılmışdı.

**Gürcüstandakı vəziyyətlə bağlı "Şərq"ə açıqlama verən politoloq Turab Rzayev bildirib ki, Saakaşvilinin görüntülərinin yayılmasında əsas hədəf Saakaşvilinin əslində aclıq aksiyasi keçirmədiyini və yemək yediyini cəmiyyətə göstərməkdir. Bunu ilə da, Saakaşvilinin tərəfdarları arasında inamsızlıq yaratmaq istəyirlər:** "Bir neçə gündür ki, Gürcüstan ərazisində böyük mitinqlər, aksiyalar baş verir. Həm Mixeil Saakaşvilinin və onun partiyası "Vahid milli hərəkət" tərəfdarları, həm də müxalifətçilər küçələrə toplanırlar. Onlar Saakaşvilinin azad edilməsi ilə bağlı mitinqlər həyata keçirirlər. Paytaxt Tiflisdə və Saakaşvilinin saxlanıldığı Rustavidə çadrlar qurulur və buna dünya ictimaiyyətinin diqqəti yönəlir. Bu məsələyə Qərb diplomatlarından və Amerika Birləşmiş Ştatlarından xüsusi diqqət ayrılır. Amerika səfirliyi bununla bağlı açıqlama verib. Ukrayna da bu məsələdə maraqlıdır. Çünki Saakaşvilinin həm də Ukrayna vətəndaşlığı var. Ukrayna hökuməti, xüsusən də dostu prezident Zelenski də onunla bağlı məsələni gündəmdə saxlayır. Bundan da bəlli olur ki, gürcü hökuməti bu təzyiqlərin azalması, mitinqlərin dağılması üçün Saakaşvilinin yemək yediyi iddia olunan görüntüləri ictimaiyyətə təqdim edir. Bununla da onun tərəfdarları arasında bir inamsızlıq, çaxnaşma yaratmağa çalışır və mitinqləri, nümayişləri, həm də beynəlxalq təzyiqləri azaltmağa çalışır. Saakaşvilinin 10 kiloqramdan çox arıqladığı bəllidir və onun sağlıq vəziyyətinin yerində olmadığı, zorla ətrafdakıların köməyilə yediyi də bəllidir. Əlbəttə ki, o, su və ilkin qidalar qəbul edir. Çünki Mixeil Saakaşvilinin həddən tez aclıq aksiyası ilə həlak olması nə Saakaşvilinin özünə, nə də gürcü cəmiyyətinə yenilik gətirəcək. Ona görə də Mixeil Saakaşvili arada bu cür yardımlardan istifadə etməklə, mümkün qədər öz aclıq aksiyasını daha uzun həyata keçirməsinə və onun özünün bu çağırışının həm gürcü cəmiyyətinə, həm beynəlxalq cəmiyyətə, ictimaiyyətə daha uzun müddətə yayılmasına nail olmağa çalışır".

**Aynurə Pənahqızı**



# Erməni xalqı Qərblə Rusiyanın arasında qalıb

## Bu ölkədə nəinki müxalifət, heç iqtidar da öz iradəsi, ağlı ilə hərəkət etmir

**Noyabrın 8-də İrəvanda Ermənistanın sabiq prezidenti Robert Koçaryanın blokunun mitinqi baş tutub. Mitinqdə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyanın rəhbərlik etdiyi parlament blokunun nümayəndələri də iştirak edib. Etiraz aksiyasında Paşinyan hökumətinə qarşı "müqavimət hərəkatı" yaradılacağı qeyd olunub.**

Ermənistan parlamentinin sədr müavini, müxalif "Hayastan" fraksiyasının üzvü İşxan Sağatelyan deyib ki, onlar erməni xalqının Qarabağda "məhv edilməsinin" qarşısını alacaqlar. Həmçinin, Ermənistanın türkləşməsinə və yeni kapitulyasiyaya yol verməyəcəklər: "Xarici cəbhədə bütün dünyaya, xüsusilə düşmənlərimizə göstərməli və isbat etməliyik ki, Nikol erməni xalqın ümumiləşdirilmiş obrazı deyil. Ona ölkəni yeni güzəştlərə aparmaq mandatı verilməyib. Bu hakimiyyət tərəfindən imzalanmış hər hansı anti-erməni sənəd bizim üçün qəbuledilməz olmayacaq". "Hayastan" fraksiyası İrəvanın bir neçə yerində "Ermənistanın xilası naminə vətəndaşların müqavimət hərəkatına" yazılması üçün informasiya məntəqələri açıb.

Robert Koçaryan da xalqı mövcud hakimiyyət tərəfindən "Dağlıq Qarabağ və Ermənistan üçün risklər ehtiva edən" sənədlər imzalamağa yol verməməyə çağırıb. Koçaryanın sözlərinə görə, sərhədlərin delimitasiyası və demarkasiyası Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması deməkdir: "Bunun baş tutması Qarabağ məsələsinin tənzimlənməsinin sonu deməkdir. Biz mübarizə edəcəyik və inanın, bu hakimiyyəti qovacağıq".

Mitinq təşkilatçıları xalqı "hakimiyyət dəyişikliyi uğrunda mübarizəyə" çağırıblar: "Məğlubiyyət partiyası əmin-amanlıq və inkişaf gətirə bilməz, məğlubiyyət simvolu olan hakimiyyət ölkə maraqlarının layiqli təmsilçisi ola bilməz. Öz şəxsi maraqları və vəzifə naminə minlərlə insanı ölümə göndərən insan dövlətimizə rəhbərlik edə bilməz".

**Ermənistandakı prosesi "Şərq"ə dəyərləndirən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, Ermənistanda nəinki müxalifət, heç iqtidar da öz iradəsi, ağlı ilə hərəkət etmir. Analitikə görə, bədbəxt erməni xalqı iki tərəfin arasında qalıb:** "Erməni ictimaiyyəti bilmir ki, iqtidara qulaq assın, yoxsa müxalifətə. Ermənistanda keçirilən seçkinin nəticəsi göstərdi ki, xalq arasında Paşinyanın nüfuzu qalmaqdadır. Müxalifətin bu cür sərsəm fikirlər səsləndirməsinin kökündə duran əsas səbəb kənardan aldığı dəstəkdir. Daha dəqiq desək, Rusiyadan aldığı təlimatlardır. Robert Koçaryanı dəstəkləyən əsas güc Moskvadır. Kreml zaman-zaman "Qarabağ klanı"nın təmsilçilərini bu cür sərsəm ifadələr söyləməyə vadar etməklə bölgədəki vəziyyəti daim gərgin saxlamağa çalışır. Erməni müxalifətinin xalq içində dəstəyi yoxdur. Koçaryanın mitinqdə səsləndirdiyi bütün fikirlər birbaşa Rusiyaya aiddir. Müxalifət bu cür sözlərlə həm də iqtidara təzyiq göstərməyə çalışır ki, Paşinyan hökuməti Azərbaycanla danışıqlar prosesindən çəkinsin. Rusiya hələ də həyata keçirə bilmədiyi məsələləri reallaşdırmaq üçün Azərbaycan-Ermənistan tərəflərinin razılaşmasını istəmir. Moskva indiki məqamda öz istəyini ancaq Ermənistan vasitəsi ilə həyata keçirə bilər".

**İsmayıl Qocayev**

# Ermənistan taleyinə boyun əyməlidir

## Tarixdə işğalçılar həmişə məğlub olublar

**"2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiyanın dövlət başçısı Vladimir Putin arasında imzalanan üçtərəfli bəyanat regionda münaqişənin birinin bitməsinin başlanğıcı, Cənubi Qafqazda yeni şəraitin yaranmasının əsası, habelə təhlükəsizliyin təhdid edilməsinin qarşısının alınması istiqamətində atılan faydalı addım idi.**



***"Faşist Almaniyasının imzaladığı kapitulyasiya aktı hər kəsə məlumdur"***

Tərəflər arasında 9 maddəlik sənəddə 3 rayonun - Laçın, Ağdam və Kəlbəcərin döyüşsüz Azərbaycana qaytarılması məsələsi də var. Bu çox əhəmiyyətli müddəa sayılır. Məlumatlara görə, Ermənistan həmin istiqamətdə çox böyük hərbi qüvvə yığıbmış. Çünki bu üç rayon strateji bölgələrdəndir. Laçından dəhliz keçdiyi, Kəlbəcərdəki yüksəkliklərdən Ermənistan və Azərbaycan ərazilərinə nəzarət mümkün olduğu, Ağdamdan isə Xankəndi və Şuşaya yollar keçdiyi üçün işğalçı həmin rayonlar istiqamətində öz qüvvələrini daha çox cəmləyibmiş. Ermənistan həmin ərazilərdən Azərbaycan Ordusunu qarşılayıb döyüşdə dönüş yaratmaq niyyətində idi. Bu isə həmin bölgələrdə döyüşlərin daha şiddətli olacağından xəbər verirdi. Bu həm də hər iki tərəfdən çoxlu sayda insan itkisi ilə nəticələnə bilərdi. Ona görə də həmin rayonların atəş açılmadan Azərbaycanın nəzarətinə qaytarılması bəyanatın uğurlarından sayıla bilər".

**Bu fikirləri politoloq Sədrəddin Soltan "Şərq"ə açıqlamasında deyib. Politoloq qeyd edib ki, sənəddə Rusiya sülhməramlılarının müvəqqəti olaraq yerləşməsi və mandatına dair müddəalar da var:** "Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Bu maddədə erməni silahlıların çıxarılmasının vurğulanması da sənədin uğurlu məqamlarındandır. Bundan başqa, regionda hər hansı silahlı qüvvələrin yaradılması və ya formalaşdırılmasına işarə belə yoxdur. Bu isə separatçıların törtöküntülərinin Rusiyaya qarşı çıxışı kimi dəyərləndirilə bilər. Burada həm də Rusiya sülhməramlılarının qalma müddəti açıq-aydın göstərilib. Bu, onların Azərbaycanda həmişəlik qalacağı ilə bağlı məsələyə də aydınlıq gətirir. Sənəddə açıq-aydın göstərilir ki, müddət bitəndən sonra tərəflərdən biri onun uzadılmasını istəməzsə, rusiyalı hərbçilər müvəqqəti yerləşdikləri Azərbaycan ərazisini tərk edəcəklər. Bəyanatın uğurlu tərəflərindən biri atəşkəsə nəzarət etmək üçün Türkiyə və Rusiya hərbçilərinin birgə monitorinq mərkəzi yaratmasıdır. Bu həm də Cənubi Qafqazda Türkiyə hərbçilərinə beynəlxalq ictimaiyyətin etimad göstərməsi deməkdir".

**S.Soltan əlavə edib ki, Bəyanatın 7-ci maddəsində məcburi köçkün və qaçqınların qayıtması məsələsi öz əksini tapıb:** "Bu isə Azərbaycan ərazisində münaqişə və hərbi əməliyyatların bitdiyinin göstəricisi anlamına gəlir. Sənəddə vurğulanan başlıca məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək". Bu bəyanat göstəriciləri ilə işğalçı Ermənistanın kapitulyasiya aktıdır. Tarixdə işğalçılar həmişə uduzublar. Faşist Almaniyasının imzaladığı kapitulyasiya aktı tarixdən hər kəsə məlumdur. Həmin sənədə əsasən, Almaniyaya hətta ordu saxlamaq belə qadağan edildi. Bundan başqa, Almaniya iki yerə parçalandı. Bu ölkə soyqırımı törətmiş faşistlərin əvəzinə yəhudilərə təzminat ödədi. Dövlətin başçısı olmuş Adolf Hitler isə mühakimədən qorxaraq intihar etdi və s. Nikol Paşinyanın imzaladığı kapitulyasiya aktına əsasən, Azərbaycan torpaqlarının işğalında iştirak etmiş Ermənistanın bütün rəhbərləri, keçmiş prezidentlər Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarkisyan, müdafiə nazirləri Seyran Ohanyan, habelə separatçı rejimin başçıları Arkadi Qukasyan, Bako Saakyan və Araik Arutyunyan törətdikləri cinayətlərə, dinc əhaliyə qarşı vəhşiliklərin təşkilinə görə beynəlxalq məhkəməyə verilməlidir. Bu, müasir dövrdə işğalçının və işğalçılığın aqibəti baxımından çoxlarına dərs olar. 44 günlük müharibədə müasir hərbin bir çox yenilikləri, taktikaları tətbiq edildi. Bu və başqa məsələlər tarixdə araşdırılacaq. Kapitulyasiya aktı münaqişənin bitdiyinin, statusun isə birdəfəlik gündəlikdən çıxdığının göstəricisidir. Odur ki, belə bir şəraitdə münaqişə və statusdan danışmaq artıq yersiz iddiaya çevrildi".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**







Mələhət Rzayeva

**“Ermənistan, Gürcüstan, Dağıstan, İran ərazilərində yayım mümkün olacaq. Bu qüllə müasir texniki şərtlərlə tikiləcək"**

# Azərbaycanın səsi, görüntüsü bütün regiona yayılacaq

## Şuşada ucaldılacaq teleradio qülləsi ölkəmizə informasiya və kommunikasiya sahəsində bir çox üstünlüklər qazandıracaq

**Zəfərimizin ilk ili ölkəmizin, xalqımızın, dövlətçiliyimizin gələcəyinə hesablanmış tarixi hadisələrlə yadda qaldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Qarabağa növbəti səfər etdilər.**

Səfər zamanı dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak etdilər. Zəfər yoluyla mədəniyyətimizin beşiyi-təkcə Azərbaycanın deyil, regionun mədəniyyət paytaxtına çevrilən Şuşa şəhərinə gəldilər. Burada isə bir sıra yeniliklərə imza atdılar. Daşaltı kəndində tikiləcək məscidin və Şuşa şəhər xəstəxanasının təməlini qoydular. Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış oldular. Sonra dövlətimizin başçısı və birinci xanım VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşdülər, söhbət etdilər, Cıdır düzündə oldular. Şuşa səfəri zamanı yaddaqalan işlərdən biri də cənab Prezident və Mehriban xanım Əliyeva tərəfindən Şuşa Radio-Televiziya yayım qülləsinin təməlinin qoyulması oldu. Dövlətimizin başçısına və birinci xanıma təməli qoyulan Şuşa Radio-Televiziya Yayım Stansiyası barədə məlumat verildi. Bildirildi ki, Şuşa Radio-Televiziya Yayım Stansiyası 1966-cı ildə inşa edilib. Sovet dönəmində radio-televiziya proqramları bu stansiya vasitəsilə Qarabağa və Naxçıvan Muxtar Respublikasına ötürülürdü. Şuşa işğal olunana qədər teleradio proqramlarının bu bölgələrə ötürülməsinə ermənilər hər vasitə ilə mane olurdular. Stansiya dəfələrlə ermənilər tərəfindən ağır artilleriya atəşinə məruz qalmışdı, avadanlıqlar zədələnmişdi, texniki binada ciddi dağıntılar baş vermişdi. 1992-ci ildə Şuşa işğal olunduğu zaman stansiyanın fəaliyyəti də nəzarətdən çıxdı. Vətən müharibəsində əldə olunmuş Qələbədən sonra Şuşa Radio-Televiziya Yayım Stansiyasında ötən il dekabrın 31-dən radio-televiziya yayımlarının təşkili müvəqqəti bərpa edilib. Stansiyadan yayımlanan 11 televiziya proqramının Şuşa, Xankəndi şəhərlərində və Xocalı, Ağdam, Bərdə rayonlarında, eləcə də ətraf yaşayış məntəqələrində yayımı təmin olunub. Layihəyə əsasən burada 130 metrlik metal qüllə tikiləcək. Texniki binanın inşası Azərbaycanın telekommunikasiya sisteminin inkişaf etdiyi ölkələrdən birinə çevrildiyinin daha bir sübutu olacaq. İnşa olunacaq yeni qüllə dayanıqlı və keyfiyyətli radio-televiziya yayımının təmin edilməsinə imkan verəcək. Şuşa və ətraf ərazilər keyfiyyətli radio-televiziya yayımları ilə təmin olunacaq. Məlumat üçün o da bildirilir ki, vaxtilə Şuşada ilk bölgə televiziyası olub. Azərbaycan Televiziyası radionun yaranmasından 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Həmin dövrdə Azərbaycanda televiziyanın fəaliyyət göstərməsi nadir hadisə sayılsa da, Dövlət Televiziyası Azərbaycanda yeganə TV deyildi. Bölgə televiziyası olaraq, Şuşa televiziyası da fəaliyyət göstərirdi. 1961-ci ildə Gəncədə, Göyçayda və Şuşada güclü televiziya stansiyalarının işə düşməsi Bakıdan yayılan verilişləri Xanlar, Goranboy, Yevlax, Mingəçevir, Ağcabədi və Dağlıq Qarabağda maneəsiz qəbul etməyə imkan verirmiş. Bir neçə il öncə Şuşa televiziyasının bərpası gündəmə gətirildi. Televiziyanın Şuşadan kənarda belə olsa, fəaliyyət göstərməsinin önəmi vurğulandı. Bu təşəbbüs reallaşmasa da, gələcək üçün daha fərqli planların, təkliflərin səsləndirilməsinə zəmin rolunu oynadı. Lakin indi vəziyyət tamam fərqlidir. Azərbaycan artıq qalib ölkədir. İşğal altındakı ərazilər düşməndən təmizlənib. Azərbaycan regionun qüdrətli ölkəsi olaraq istənilən və vacib sayılan məkanlarda telekommunikasiya imkanlarını genişləndirməkdə sərbəstdir. Şuşa teleradio qülləsinin tikilməsi, Şuşada teleradio yayımının gerçəkləşməsi qələbəmizin məntiqi davamıdır. Xatırladaq ki, bu günlərdə keçirilmiş VIII Bakı Qlobal Forumunda iştirak edən Moldovanın sabiq Baş naziri Kiril Qaburiç də KİV-ə açıqlamasında ”Azərbaycanın azad edilmiş bölgələrində teleyayım infrastrukturu qurması zəruridir” söyləmişdi. Sabiq baş nazir bildirmişdi ki, işğaldan azad edilmiş Qarabağda televiziya yayımına dair müvafiq infrastrukturla yanaşı, sürətli internet xidmətləri də təşkil edilməlidir.

**Əməkdar jurnalist, Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli ”Şərq”ə açıqlamasında Şuşada ucaldılacaq teleradio qülləsinin ölkəmizə informasiya və kommunikasiya sahəsində bir çox üstünlüklər qazandıracağını qeyd etdi:**

- Çox yaxşı haldır ki, işğaldan azad edilmiş ərazilərdə atılan addımlardan biri də Şuşa teleqülləsinin təməlinin qoyulması oldu. Bu, nəinki ölkəmizə, həmçinin bütün Qafqaz regionunun müasir kommunikasiyalar sahəsində üstünlüklər əldə etməsi deməkdir. Şuşada - ən hündür ərazidə teleqüllənin olması bizə tele-radio yayımının bütün ətraf bölgələrə yayımlanmasına imkan verəcək. Ermənistan, Gürcüstan, Dağıstan, İran ərazilərində yayım mümkün olacaq. Bu qüllə müasir texniki şərtlərlə tikiləcək. Bu da kənar dalğaların qarşısını alacaq. Kənar dalğalarla mübarizəsində bizə ciddi avantaj verəcək. Azərbaycanın səsi, Azərbaycanın görüntüsü bütün regiona yayılacaq. Çox geniş məsafələri əhatə edəcək. Etiraf edək ki, elə ərazilərimiz vardı, orada Azərbaycan radio-televiziyasının dalğalarının yayılması məhdud idi. Yerli əhali Azərbaycan radio-televiziyasına baxıb-qulaq asa bilmirdi, amma qonşu dövlətlərin teleradiosu asanlıqla yayılırdı. Şuşa qülləsi bunların qarşısını alacaq. Dövlətimiz, cənab prezident tərəfindən Şuşa qülləsinin tikilməsi sərəncamı çox vacib, zamana və tarixə hesablanmış addımdır.

*Q.Məhərrəmli xatırlatdı ki, vaxtilə Şuşada, ”Qızıl Qaya” deyilən ərazidə Şuşa tele-radio mərkəzi yerləşib. Orada Azərbaycan Televiziyasının Şuşa bürosu fəaliyyət göstərirdi:*

- 20 Yanvar faciəsi günlərində məhz bu tele-radio mərkəzindən Azərbaycanın səsi regiona yayıldı, paytaxtda baş vermiş Qanlı yanvar günü ilə bağlı məlumatlar dünya mediasına ötürüldü. Qarabağ münaqişəsi başlayan dövrdə də bu teleradio mərkəzi üzərinə düşən işi şərəflə yerinə yetirdi. Biz bundan sonra Şuşada ucaldılacaq teleqüllənin işini səmərəli qurmaqla regionda ciddi informasiya şəbəkəsi əldə etmiş olacağıq.

**Sualımızı cavablandıran Əməkdar jurnalist Səadət Məmmədova da ”Şərq”ə açıqlamasında bildirib ki, Böyük Zəfərin zirvəsi olan Şuşada teleradio yayımının bərpası istiqamətində atılan bu addım düşmənin məhv etdiyi yurdumuzun dirçəldilməsi baxımından böyük rəmzi məna daşıyır. O qeyd edib ki, bu, Azərbaycanda telekommunikasiyanın inkişafında daha bir mərhələ kimi yadda qalacaq:**

”Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qarabağı addım-addım bərpa edirlər. Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlinin qoyulmasına ikiqat sevindim. Birincisi, Qarabağın səsi elə Qarabağdan dünyaya yayılacaq. Biz də teleradio əməkdaşları kimi bu işdə öz səylərimizi əsirgəməyəcəyik. İkincisi, Birinci Qarabağ müharibəsi vaxtı mən yeniyetmə idim və Şuşa televiziyasının necə ağır şərtlər altında fədakarlıqla işləməsini ailəlikcə həyəcanla izləyirdik.

Şuşa televiziyasının yayımını göz qırpmadan gözləyirdik. Sonra mənfur düşmən bu telekanalın səsini batırdı. 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Zəfərin zirvəsi olan Şuşada teleradio yayımının bərpası istiqamətində atılan bu addım düşmənin məhv etdiyi yurdumuzun dirçəldilməsi baxımından böyük rəmzi məna daşıyır.

Teleqüllə Şuşanın ən yüksək zirvəsində yerləşir, orada yeni tikiləcək 130 metrlik metal qüllə ətrafdakı uca dağlara, yer kürəsindəki bütün hündürlüklərə və hündürdəkilərə zirvədən səsləniş olacaq. Eyni zamanda Azərbaycanda telekommunikasiyanın inkişafında daha bir mərhələ kimi yadda qalacaq”.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




# Türkmənistan prezidentlərin görüşünə çox maraqlıdır

## Qarabağ məsələsinin həll olunması türk dövlətləri üçün böyük imkanlar yaradır

**”Yaxın zamanda Azərbaycan, Türkmənistan və Türkiyə prezidentlərinin görüşü olacaq”.**

Bunu Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov bildirib.

Onun sözlərinə görə, üç ölkə arasında münasibətlərin hazırkı vəziyyəti siyasi, iqtisadi, ticari və humanitar istiqamətlər üzrə üçtərəfli əməkdaşlığı səmərəli şəkildə inkişaf etdirməyə və yaxşılaşdırmağa imkan verir.

”Qarşıdan gələn üçtərəfli zirvə görüşündə söhbət ilk növbədə enerji, nəqliyyat, kommunikasiya və digər strateji istiqamətlərdən gedəcək”, - Türkmənistan Prezidenti deyib.

Türkmənistan, Azərbaycan və Türkiyənin Şərq-Qərb istiqamətində etibarlı nəqliyyat və enerji körpüsünün yaradılması üzərində fəal iş apardıqlarını qeyd edən Q.Berdiməhəmmədov nəqliyyat sahəsində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu üzrə layihənin həyata keçirilməsi perspektivlərinin mövcud olduğunu vurğulayıb.

”Üç ölkənin potensialının bir araya gətirilməsi, ümumi resurslardan, coğrafi, sənaye və texnoloji imkanlardan istifadə təkcə milli iqtisadiyyatın inkişafına güclü təkan verməyəcək, həm də bütün Avrasiya məkanında yeni perspektivlər yarada bilər”, - o diqqətə çatdırıb.

Xatırladaq ki, Türkmənistan, Azərbaycan və Türkiyə prezidentlərinin görüşü 2021-ci ilin avqust ayında Xəzərin Türkmənistan sahillərində yerləşən ”Avaz” milli turizm zonasında keçirilməli idi.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan siyasi elmlər doktoru Sabir Məmmədli bildirib ki, Türkmənistan prezidentinin bu fikirləri onun hazırkı mövqeyni əks etdirir:** ”Həqiqətən Qarabağ məsələsinin həll olunması Mərkəzi Asiya, türk dünyası üçün böyük perspektivlər vəd edir. Xatırlayırsınızsa, əvvəlki dövrdə Rusiya birbaşa dominantlıq edirdi. Belə bir saziş də imzalamışdı ki, Türkmənistan ərazisində çıxarılan qazı Rusiya alacaq, tranzit məsələsini həll edəcək. Bu istiqamətdə bir sıra addımlar atmışdı. Amma bununla belə son dövrlər Çin də Türkmənistan bazarına daxil oldu. Bir sıra layihələr hazırladı. Bütövlükdə Türkmənistan qazını dünya bazarına çıxarılmasında maraqlı dövlətdir. Türkiyənin birbaşa Azərbaycan tərəfindən Xəzər sahillərinə çıxması mərkəzi Asiya üçün də, türk dünyası üçün də yeni bir fürsət yaradır. Bu fürsət faktiki olaraq daimi olacaq. Hazırda dünya mətbuatında da qeyd olunur ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk dünyasını birləşdirmək, vahid bir iqtisadi məkan yaratmaq fikrində çox iddialıdır. Nəzərə almaq lazımdır ki, bu əlaqələr Türkmənistanın özü üçün vacibdir. Xüsusən də neft məhsullarının Azərbaycan üzərindən Avropaya ixracı zamanı”.

**Siyasi elmlər doktoru bir müddət bundan öncə Azərbaycan və Türkmənistan arasında Sərdar yatağı (Dostluq yatağı) ilə bağlı anlaşılmazlıq yarandığını xatırladıb:** ”Çox yaxşı ki, Qarabağ torpaqlarının azad edilməsi ilə əlaqdər olaraq Azərbaycan Prezidenti və Türkmənistan Prezidenti danışıb bu mübahisəli yataq məsələsini də həll etdilər. Hazırda bu iki ölkə arasında heç bir mübahisəli məqam yoxdur. Bunlar birlikdə Avropaya qaz ixracında vahid mövqedən çıxış edirlər.

Türkiyənin də Azərbaycan, Türkmənistan xəttini dəstəkləməsi Türkmənistan üçün yeni perspektivlər açır. Hesab edirəm ki, bir müddətdən sonra Özbəkistan və digər türkdilli dövlətlər də belə layihələrə qoşulacaqlar”.

S.Məmmədli sonda əlaqələrin bu cür güclənməsinin türk dövlətlərinin mənafeyinə xidmət etdiyini və gələcəkdə prosesdə iştirak edən xalqlar üçün də böyük imkanlar yaranacağını əlavə edib.

**Günəş Mərd**

# Qarabağa səfərlər növbəti təxribatdır

**Ermənistanın keçmiş prezidentləri Robert Koçaryanla Serj Sarkisyan Xankəndiyə gediblər. Bu barədə ”İravunk” nəşri məlumat yayıb. Onlar noyabrın 7-də 93 yaşında ölən Serj Sarkisyanın anası Nora Sarkisyanın dəfn mərasimində iştirak ediblər.**



## Ancaq Azərbaycan yenə təmkinli və ağıllı tərpənəcək

Dəfnlə bağlı Xankəndiyə təşkil edilmiş bu səfər, yaxın günlərdə zəfər gününü qeyd edən Azərbaycan tərəfində qıcıq yaratmaq məqsədi daşıya bilərmi?

**Məsələni Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədri Mələhət İbrahimqızı ”Şərq”ə şərh edib. O bildirib ki, ermənilər bu günə qədər dünyaya bəyan ediblər ki, guya biz onların hüquqlarını pozmuşuq:** ”Azərbaycanda yaşayan ermənilərə qarşı haqsızlıq etmişik və s. İkinci Qarabağ müharibəsinin gedişatı zamanı Azərbaycan prezidenti beynəlxalq ictimaiyyətə mesajlar göndərirdi. Burda qeyd olunurdu: ”Biz beynəlxalq sənədlərdə əksini tapdığı kimi işğal altında olan torpaqlarımızı azad edəcəyik”. Belə də oldu. Həmçinin bildirilirdi Qarabağ işğaldan azad olunduqdan sonra burda yaşayan ermənilər Azərbaycan vətəndaşı olacaq. Biz onların bu ərazilərə gəlmə olduğunu bilirik. Xankəndi də Qarabağda insanların daha çox kompakt yaşadığı bir yerdir. Burda yaşayan əhalinin çoxluğu etnik ermənilərdən ibarət olub. Biz qələbə qazandıqdan sonra prezidentimiz dəfələrlə beynəlxalq ictimaiyyətə bu ermənilərin taleyi ilə bağlı açıqlama verib. Deyib ki, ermənilər də azərbaycanlılarla eyni hüquqlara sahib olacaqlar. İndi bu cəllad Sarkisyan Qarabağdandır. Anası dünyasını dəyişib gətirib Xankəndində dəfn ediblər. Bu bir insani məsələdir. Hərçənd ki, ermənilər insani, humanist dəyərlərdən uzaqdırlar. Xüsusilə də onların liderləri. Tək Azərbaycana qarşı yox, bütün dünya xalqlarına qarşı onlarda nifrət var. Biz bir azərbaycanlı olaraq buna qarşı etiraz etmərik. Onlardan fərqli olaraq Azərbaycan xalqı humanist, yüksək bəşəri dəyərləri özündə əks etdirən bir xalqdır”. **M.İbrahimqızı erməni siyasilərin işğaldan azad olunmuş Qarabağa qanunsuz səfərlərinin bizi provakasiyaya cəlb etmək üçün atılan addımlar olduğunu vurğulayıb:** ”Amma onlar müharibə dönəmində bizim küyə getməyən bir xalq olduğumuzun çox gözəl şahidi oldular. Onlardan fərqli olaraq Azərbaycan xalqı humanist, yüksək bəşəri dəyərləri özündə əks etdirən bir xalqdır”.

**Günəş Mərd**

# Qazaxın 7 kəndi qaytarılmalıdır

## Əks təqdirdə antiterror əməliyyatı keçiriləcək




**Qazax rayonunun 7 kəndi hələ də işğal altındadır. Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan 2020-ci il 9 noyabr bəyanatının 2-ci bəndinə əsasən, Qazax rayonunun işğal edilmiş 7 kəndi və Naxçıvanın Sədərək rayonuna aid Kərki kəndi Azərbaycana geri verilməlidir.**

Azərbaycana qaytarılacaq 7 kənd - Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli kəndləridir. Qazax rayonunun sözügedən 7 kəndini və Kərkini Azərbaycana geri qaytarması məsələsinin tezliklə həll ediləcəyi gözlənilir. Lakin Ermənistan tərəfi bu addımı atmayıb. Rəsmi Bakı Qazaxın 7 kəndi, Naxçıvanın Kərki kəndinin təhvil verilməsini tələb edir. Ermənistan 7+1 kəndə əvəz olaraq Gədəbəyin Başkənd kəndini istəyir”.

**Mövcud durumu ”Şərq”ə dəyərləndirən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli deyib ki, Qazaxın 7 kəndi geri qaytarılmasa, antiterror əməliyyatı keçiriləcək:**

”7 kənddən başqa Qazaxın 2 min hektar meşə və otlaq sahələri də var. Hamısını geri qaytaracağıq. 1920-ci illərin xəritəsinin əsas götürülməsini tələb edəcəyik. Ermənilər ”xəstə” millətdir. Onların dedikləri ilə oturub-durmayacağıq. Zəngəzur dəhlizinin də açılmasını yubadırlar. Amma bu dəhlizin açılması ilk növbədə Rusiya, Emənistan üçün faydalıdır”.

**Aygün**

# Xəstələnənlər də çoxdur, sağalanlar da

## Dünya üzrə peyvəndləmə kampaniyası sürətləndiyindən xüsusi şprislərə tələbat artıb




Mələhət Rzayeva

**Koronavirusla bağlı yeni xəbərlər heç də ümidverici deyil. COVİD-19-un mənbəyi - Çindən gələn məlumat budur ki, ölkənin şimal-şərqindəki Heykeyntzsyan əyalətində, Rusiya ilə sərhəddə yerləşən Heihe şəhərinin hökuməti koronavirus infeksiyasının kəskin yayılması fonunda, epidemioloji mənbənin axtarışında və epidemioloji istintaqda kömək edənlərə 100.000 yuan (26,6 min manat) mükafat vəd edir.**

Şəhər rəhbərliyi vətəndaşın sərhədi qanunsuz keçmə, qaçaqmalçılıq, qanunsuz ov və sərhədyanı balıq ovu halları ilə bağlı hər hansı məlumat olduqda dərhal polisə məlumat verməyə çağırır. 2021-ci il oktyabrın 1-dən internet vasitəsilə idxal mallarını, xüsusən də dondurulmuş qidaları almış şəxslər dərhal qablaşdırmanı və malları özləri dezinfeksiya etməli, sonra onları yerli xəstəliklərə qarşı mübarizə və profilaktika mərkəzinə göndərməlidirlər. Şəhərdə karantin oktyabrın 28-dən qüvvədədir: ailədən yalnız bir nəfər iki gündə bir dəfə evdən çıxa bilər, müəssisələr ciddi buraxılış rejimi ilə işləyir, ictimai nəqliyyat və taksilər işləmir, şəhərə giriş və çıxış bağlanıb, istisnalar yalnız xüsusi hallardır. Deməli, Çic qaydaları getdikcə sərtləşdirir. Bu isə koronavirusun hələ uzun müddət dünyanı təsir altında saxlayacağına işarə ola bilər.

Bu arada Ümumdünya Səhiyyə Təşkilatı da xəbərdarlıqla çıxış edib. Xəbərdarlıq 2022-ci ildə peyvənd üçün nəzərdə tutulan 1 milyarddan çox xüsusi şprisin çatışmazlığı ilə bağlıdır. ÜST-nin dərman və tibbi məhsullara çıxış bölməsinin baş məsləhətçisi Lisa Hedman Cenevrədə keçirdiyi brifinqdə ”bu çatışmazlıq dünyada peyvəndləmə prosesinin ləngiməsinə səbəb ola bilər”, söyləyib. ”Biz peyvənd üçün real şpris çatışmazlığı ilə üzləşə biləcəyimizdən narahatlığımızı bildiririk. Dünyada sənaye müəssisələri hər il peyvəndlər üçün təxminən 6 milyard şpris istehsal etmək iqtidarında olduğuna görə, bu çatışmazlıq özünü göstərə bilər”, Hedman bildirib.

ÜST rəsmisi xatırladıb ki, 2021-ci ildə COVID-19-a qarşı 6,8 milyarddan çox peyvənd edilib ki, bu da digər xəstəliklər üçün adi peyvəndlərin sayından demək olar ki, iki dəfə çoxdur. Belə ki, koronavirusa qarşı peyvənd üçün istifadə olunan xüsusi şprislər digər xəstəliklərə qarşı peyvəndlə müqayisədə iki dəfə çox lazımdır.

”Çatışmazlıq şprislərin təkrar istifadəsinə gətirib çıxara bilər ki, bu da çox təhlükəli təcrübədir”, deyə baş məsləhətçi əlavə edib.

**ÜST-nin xəbərdarlığını ”Şərq”ə şərh edən Azərbaycan Dövlət Tibb Univeristetinin professoru Adil Qeybulla problemin gözlənilən olduğunu bildirdi:**

- Yadınızdadırsa, pandemiyanın ilk vaxtlarında ”Flexan” preparatı çatışmazlığı yarandı. Xəstəliklərin kəskin yayıldığı dönəmlərdə, pandemiyalar zamanı nəyinsə çatışmazlığı gözlənilən haldır. Tələbat nəyədirsə, onun da çatışmazlığı yaranır. İstehsal, istər tibbi olsun, istərsə məişət və digər məhsullar, avadanlıqlar, tələbata uyğun aparılır. Amma fövqəladə hallarda tələblə-təklif arasındakı balans pozulur. Koronavirus pandemiyası da belədir. Hazırda dünya üzrə peyvəndləmə kampaniyası sürətləndiyindən xüsusi şprislərə tələbat artıb. İstehsal isə yaranmış kəskin tələbatı ödəyə bilmir. Xəstələnənlər də çoxdur, sağalanlar da. Peyvənd prosesi də aparılır. Peyvənd olunanların sayı artmalıdır ki, xəstələnənlərin sayı getdikcə azalsın və kollektiv immunitet formalaşsın. Pandemiyanın bitməsi kollektiv immunitetin nə qədər tez formalaşacağından asılıdır. Şprislərlə bağlı yaranan problem, hesab edirəm ki, yaxın zamanda çözüləcək. Bir yolunu mütləq tapacaqlar. İstehsalı artırmağa çalışacaqlar.

**A.Qeybulla hazırda istifadə olunan vaksinlərin getdikcə təsirini itirməsi və yeni vaksinlərin yaranması ehtimalından da danışdı:**

- Virusun mutasiya forması artdıqca, virus yeni xassələr qazanır. Ona görə də vaksinlərin yeni formalarının hazırlanması zərurəti yaranır. Virus şəklini, formasını dəyişirsə, əlbəttə, əvvəlki şəkli zərərsizləşdirmək üçün yaradılmış vaksinlər təsirsiz ola bilər. Vaksinlərin yeni formalarının yaranacağı, bu baxımdan gözləniləndir. Virus dəyişirsə, vaksinlərə də ”əl gəzdiriləcək”.

## Nazilə Sərxan Kərəmoğluna sataşdı

### “Boynundakını ”Sədərək”dən almısan?”



**Aktyor Sərxan Kərəmoğlu ilə şairə Nazilə Səfərlinin ”Zaurla Günaydın” verilişindəki dialoqu qalmaqal yaradıb.**

”Şərq” xəbər verir ki, N.Səfərli S.Kərəmoğluna ”O günü səni ”Sədərək”də gördüm, boynundakıları oradan aldın?” deyib. Şairənin sözlərinə cavab verən aktyor S.Kərəmoğlu bildirib ki, ”Mən ”Sədərək”ə (T/M) gedənlərdən deyiləm”.

Verilişin aparıcısı Günay Baxşəliyeva isə S.Kərəmoğlunun sözlərinə ”Nə varsa, elə ”Sədərək”də var” deyə cavab verib.

**Aygün Tahir**

Akif Aşırlı və “Şərq” qəzetinin kollektivi millət vəkili, akademik Nizami Cəfərova anası

**Savad xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

Vəli Xıramçaylı, Vasif Quliyev millət vəkili, akademik Nizami Cəfərova anası

**Savad xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

**Elan**

Nəriman Nərimanov adına Azərbaycan Tibb Universitetinin 21 iyun 1994-cü ildə Mustafayeva Leyla İbrahim qızına verilmiş 842634 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Prezidentin yanında Ali Attestasiya komissiyası tərəfindən 22.02.2003-cü ildə Mustafayeva Leyla İbrahim qızına verilmiş tibb elmlər namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

# Unudulmayan şəhidlərimiz!




**Vətən müharibəsinin ildönümü münasibəti ilə keçirilən tədbirlər sırasında ”ŞƏHİDLƏR UNUDULMUR” silsiləsindən Şəmkir rayon Çənlibel kəndində şəhid ”Azərbaycan bayrağı” ordenli Kapitan Rizvan Məhərrəm oğlu Pirnazarovun adına ”Xatirə bulağı”nın açılışı olub.**

Kapitan Rizvan Məhərrəm oğlu Pirnazarov 1963-cü ildə Çəmbərək (Krasnoselsk) rayonunun Gölkənd kəndində anadan olub. Donetsk Ali Hərbi siyasi məktəbini bitirdikdən sonra Əfqanıstan Respublikasında xidmətə başlamış, 80-dən çox döyüş əməliyyatlarında iştirak etmiş və göstərdiyi cəsarət və igidliyə görə ”Qırmızı ulduz” ordeninə layiq görülüb. 1990-cı ildə Vətənin sərhədlərində gərginlik yaranan andan, Vətənə dönmüş Qazax və Gədəbəy rayonunun sərhədlərində xidmət edib. 1992-ci ilin avqust ayında onun rəhbərlik etdiyi batalyon Başkənd əməliyyatında iştirak edərək Çəmbərək - Başkənd sərhədini keçərək Ermənistandan gələcək əlavə qüvvələrin qarşısını bacarıqla alıb. Başkəndin alınmasından 3 gün sonra növbəti kəşfiyyat əməliyyatı zamanı şəxsi heyəti xilas etsə də, özünü qoruya bilmədi. Rizvan təkcə igid komandir, vətənpərvər övlad olmaqla həm də incə qəlbli şair kimi də ölməzdir. 13 iyun 1994-cü ildə ölkə Prezidentinin fərmanı ilə ”Azərbaycan bayrağı” ordeni ilə, Nazirlər Kabinetinin qərarı ilə Bakı şəhəri, Biləcəri qəsəbəsindəki 299 saylı məktəb liseyi və Çənlibel kənd tam orta məktəb qəhrəman şəhidin adını daşıyır. Şəhidimizin əziz xatirəsi dövlətimiz tərəfindən unudulmadığı kimi onu tanıyanların da xatirəsində əbədiyaşardır. Allah bütün şəhidlərimizin ruhunu şad etsin. Amin!

**Oyan, əziz dostum, bayramdır bu gün**
**Belə yuxulayıb yatmağa dəyməz.**
**Düşmənin bu yerlərdən qovulub çoxdan**
**Özünü səngərə atmağa dəyməz!**



## Kənanla ölüm zarafatı ediblər

### “Hisslərimi başa düşmək lazımdır, o vaxt çox əsəbiləşmişdim”

**Sosial şəbəkədə rejissor-aktyor Kənan MM-in dünyasını dəyişməsi ilə bağlı məlumat yayılıb.**

”Şərq” xəbər verir ki, rejissor ”Onun sirri” verilişində məsələyə aydınlıq gətirib.

Kənan MM deyib ki, o vaxt dostu bu barədə zarafatla paylaşım edib:

”Samir Xəttab təşkilatçı prodüserdir. Hazırda münasibətimiz çox yaxşıdır. Zarafatla Kənan MM dünyasını dəyişib deyə paylaşım etmişdi. Mən o vaxt ”Pərvanələrin rəqsi” serialına çəkilirdim. Həmin ərəfədə telefonumu söndürmüşdüm. Təsəvvür edin, hamı axtarırdı. Xoş hadisə deyil. Adam düşməni ilə belə zarafat etməz. Morqa gedənlər, evimə gələnlər olmuşdu, amma mən çəkilişdə idim. Kaş ki, olmasaydım. Hisslərimi başa düşmək lazımdır, o vaxt çox əsəbiləşmişdim”.

**Aygün Tahir**

# Neftin qiymətinin bahalaşmasına sevinmək lazım deyil

## Ekspert: “O ölkələr sevinə bilərlər ki, onlar tamam daxili istehsalı ilə öz ehtiyaclarını qarşılayırlar”



**CIF bazisi üzrə İtaliyanın Auqusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti noyabrın 9-da 86,24 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,15 dollar/barel çoxdur. Bu barədə ölkənin neft-qaz bazarındakı mənbə bildirib.**

FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti 85,32 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,17 dollar/barel çoxdur. Novorossiysk limanından yüklənən URALS neftinin qiyməti isə 81,46 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,31 dollar/barel çoxdur. Şimal dənizindən hasil edilən ”Brent Dated” etalon növlü neftin qiyməti 84,57 dollar/barel olub ki, bu da əvvəlki göstəricidən 0,48 dollar/barel çoxdur.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Nazim Bəydəmirli ”Şərq”ə açıqlamasında bildirib ki, neft istehsalçısı ölkələrdən - ABŞ-ı və Kanadanı çıxmaq şərtilə digərləri sənayeləşmiş və iqtisadiyyatları şaxələnmiş ölkələr deyil.** Əsas olaraq neft hasil edən ölkələr, dünya bazarında neft satan ölkələr digər istehlak malları da daxil sənaye məhsullarını, bir çox əsas neft istehsalında istismar olunan maşın və mexanizmlərin əksəriyyətini digər ölkələrdən alırlar: ”Ona görə də neftin qiymətinin bahalaşmasına sevinmək lazım deyil, yəni o ölkələr sevinə bilərlər ki, onlar tamam daxili istehsalı ilə öz ehtiyaclarını qarşılayırlar. Həmçinin, neftin qiymətinə adekvat olaraq digər məhsulların qiyməti bahalaşanda əhalisinə və iqtisadiyyatına mənfi təsir göstərmir. Beləliklə, əslində istehsalçılarla istehlakçılar arasında bir orta xətt tapılmağı daha məqsədəuyğundur ki, neft istehsal etmək səmərəli olsun, neft çıxartmaq üçün investisiyalar qoyula bilsin, həm də neft satışında qiymət bahalaşmasın. Xatırlayırsınızsa, 2019-cu ildə belə formula G8 dövlətlər tərəfindən London toplantısında tapılmışdı və bu neftin qiymətinin 60-80 dollar arasında olması daha məqbul hesab edilirdi”.

**N.Bəydəmirli hesab edir ki, bu, müvəqqəti bahalaşmadır:** ”Əslində, neftin qiyməti azalmağa doğru gedəcək. Çünki dünyada alternativ enerjinin istifadəsinə daha çox üstünlük verilir. Avropa kimi 600 milyondan çox əhalisi olan bir böyük iqtisadi gücə malik olan ölkələrdə, eyni zamanda ABŞ kimi partnyorları olan digər ölkələrdə ekoloji məsələlərə çox diqqət yetirilir. 2025-30-cu illərdə adekvat olaraq daxiliyanma mühərrikindən istifadə olunan avtomobillərin istifadəsi qadağan olunacaq. Müxtəlif istilik, elektrik stansiyaları da atom elektrik stansiyaları ilə əvəzlənir, yəni alternativ enerjiyə daha çox üstünlük verilir. Bu baxımdan hesab edirəm ki, neft ölkələrinə vacib olan neftin maya dəyərinin yüksəlməməsidir. Bu zaman qiymət nə qədər artsa da, gəlirlər bir o qədər artmır və maya dəyəri qalxdığına görə bəzən yüksək neftdən gələn gəlirlər daha az olur, nəinki orta qiymətli neftdən”.

**Aynurə Pənahqızı**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Mələhət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2281

# Azercell-dən yeni "010" nömrələri - "Qaliblərin seçimi!"

## Bu xüsusi buraxılışı lider mobil operator Zəfər bayramımıza həsr edir




**İstifadəçilərin uzun müddət səbirsizliklə gözlədiyi yeni ”010” prefiksli (şəbəkə kodlu) nömrələr, ”Azercell Telekom” tərəfindən Azərbaycanın mobil rabitə bazarına təqdim edilir.**

Şirkətin rəqəmsal siyasətinə uyğun olaraq, onlayn platforma vasitəsilə rahatlıqla nömrə əldə etmək mümkün olacaq. Belə ki, ilk dəfə olaraq bu cür iri miqyasda nömrə sifarişini onlayn rejimdə gerçəkləşdirən www.azercellim.com saytı vasitəsilə müştəri bəyəndiyi ”010” prefiks-li nömrəni seçib dərhal rəsmiləşdirə bilər. Həmin sayt üzərindən nömrə üçün onlayn ödəniş tamamlandıqdan sonra abunəçinin qeyd etdiyi əlaqə nömrəsi və ya elektron ünvanına xüsusi sifariş kodu göndərilir. Həmin kodu 7 gün ərzində istənilən Azercell satış məntəqəsinə təqdim etməklə yeni nömrəni əldə etmək mümkündür.

Yeni nömrələrin təqdimatını Azercell şirkətinin prezidenti Zərinə Zeynalova belə şərh etdi: ””Qaliblərin seçimi!” şüarı ilə ifadə olunan ”010” seriyalı nömrələrimiz Vətən müharibəsində qalibiyyətimizin ilk ildönümünə ithaf olunur. İlkin onlayn satış kanalının Azərbaycanın mobil rabitə bazarında daha geniş təqdimatı abunəçilərimiz üçün Azercell servislərini daha əlçatan və rahat edir, eyni zamanda bizə müştəri xidmətlərimizin səviyyəsini artırmağa şərait yaradır”. Yeni nömrənin aktivləşdirilmə şərtləri və tariflər haqqında daha ətraflı məlumatı Azercell-in rəsmi veb-səhifəsindən (www.azercell.com) əldə etmək olar. Azercell komandası ”Qaliblərin seçimi” - ”010” nömrələri ilə sizə daim ən sevincli və xoş xəbərlər almağı arzu edir. Qələbə bayramımız mübarək



## Sayları hər gün artır

Dünyada 45 milyon insanı aclıqdan əziyyət çəkir

**Son bir ildə 43 ölkədə aclıqdan əziyyət çəkənlərin sayı 45 milyon nəfərə çatıb.**

Bu statistika BMT-nin Dünya Qida Proqramı Fondunun son hesabatında yer alır. Baş ofisi Romada yerləşən qurum bildirir ki, aclıq çəkənlərin sayı il ərzində 3 milyon nəfər artıb.

Qurumun açıqlamasında göstərilir ki, yanacaq və gübrələrin bahalaşması ərzaq qiymətinin sıçrayışla artmasına səbəb olur. Yəmən və Suriyada uzun müddət davam edən münaqişə fövqəladə halın yaranmasına səbəb olub. Siyahıya son 3 ayda Əfqanıstan da əlavə edilib. Suriyada 12 milyondan çox insan qida tapmaqda çətinlik çəkir. Əfqanıstanda isə ailələr ərzaq almaq üçün uşaqlarını satmağa məcbur olurlar. (apa)

Aclıqla bağlı vəziyyətin ən ağır olduğu ölkələr sırasına Efiopiya, Somali, Anqola, Keniya, Burundi və Haiti də daxildir.

*BMT-nin qurumu qeyd edir ki, aclığın aradan qaldırılmasına tələb olunan vəsaitin də həcmi ildən ilə artır. Yanvarda problemin həlli üçün 6.4 milyard dollar tələb olunurdusa, hazırda bu rəqəm 7 milyardı keçib.*

## Bəbir şirin balasını oğurladı və...

"...Budaqlarda oturaraq onu yeməyə davam etdi"



**Tanzaniyadakı Ruaha Milli Parkını kəşf edən kanadalı turist Skott Hayman yolda yetkin erkək bəbir görüb. O, bir saat heyvanı təqib edib.**

Sonra isə onun gözləri qarşısında dramatik hadisələr cərəyan edib.

Bu barədə "National Geographic" jurnalı məlumat yayıb.

Qeyd edilib ki, Hayman vəhşi təbiət fotoqrafiyasına həvəslidir və o, zərif pişiyi yaxından çəkmək fürsətini qaçıra bilməzdi.

Bəbir qəfildən sıx bir kolluğa tullanıb və bir neçə saniyə sonra ağzında şir balası ilə oradan qaçıb. (publika.az)

"O, yoldan aşağı qaçdı və yolun kənarındakı ən yaxın ağaca dırmaşdı. Orada körpənin başından ölümcül dişlədi və budaqlarda oturaraq onu yeməyə davam etdi", - Hayman deyib.







# Vəfa borcu

## Atatürkə sevgi inanılmazdır



### Elektrik dirəyindəki usta da 1 dəqiqəlik farağat dayandı

Məlahət Rzayeva

**Türkiyə Cümhuriyyətinin qurucusu və öndəri Mustafa Kamal Atatürk 57 illik həyatında millətin və Vətənin müstəqilliyi üçün apardığı hər mücadilədə hərbi və siyasi dühasıyla zəfərləri taclandıraraq adını Türk və dünya tarixinə qızıl hərflərlə yazdırdı.**

"Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, dünən Mustafa Kamal Paşanın əbədiyyətə qovuşmasının 83-cü ildönümü ənənəvi olaraq bütün ölkədə 1 dəqiqəlik sükut və sayğı duruşuyla qeyd edilib. Noyabrın 10-u saat 09:05 dəqiqədə Türkiyədə səssizlik hökm sürüb. O dəqiqədə kim hardaydısa, oradaca sayğı duruşuna dayanıb. Belə məkanlardan biri də İstanbul metrosu olub. İstanbulun metro və tramvaylarında saat 09:05 dəqiqəni göstərdiyində Zülfü Livanelinin "İgidim, aslanım" mahnısının sədaları altında Atatürkü anma anonsu elan edilib. Həmin an İstanbul metrosunda 55 min sərnişin varmış. Metronun 16 xəttində eyni anda vaqonların hərəkəti dayandırılıb, sərnişinlər ayağa qalxaraq Atatürkə vəfa, sədaqət borcunu bir dəqiqəlik sükutla ifadə ediblər. Ardınca "İstiqlal marşı" oxunub. İstanbul metrosundan təsirli fotolar sosial şəbəkələrdə yayılıb. Atatürkə saygı duruşu bütün ölkədə, ən qaynar nöqtələrdə gerçəkləşib. Küçələrdə, prospektlərdə, körpülər üzərində, magistral yollarda avtomobillərin hərəkəti dayanıb, sürücülər, sərnişinlər avtomobildən enib, piyadalar hərəkətsiz dayanıb, mağaza sahibləri, satıcılar, müştərilər qapıya çıxaraq Atatürkə saygılarını 1 dəqiqəlik sükutla ifadə ediblər. Ən təsirlisi isə Bursa şəhərində həmin dəqiqələrdə elektrik dirəyində işinin başında olan bir elektrik ustasının belində təhlükəsizlik kəmərinə bağlı olduğu halda farağat dayanmasını əks etdirən görüntülərdir. Bu görüntülər Osmanqazi bölgəsi Çekirgə Meydanında çəkilib.








## Filmdəki top hərracda 311 min dollara satılıb



**Dünyaca məşhur kino aktyoru Tom Henksin çəkildiyi "Yeni həyat" ("Cast Away") bədii filmindəki "Wilson" voleybol topu Londonda keçirilən hərracda 311 min ABŞ dollarına satılıb.**

**"APA-Economics"in məlumatına görə, bu barədə "Prop Store" hərrac evinin açıqlamasında deyilir.**

***Qeyd olunur ki, əvvəlcə sözügedən lot 54-81 min dollar diapazonunda qiymətləndirilirdi.***

## "Çox şükür qəza keçirməmişəm"

Burcu "Camdakı kız"dan ayrılmır



**"Camdaki kız"da Nalan obrazını canlandıran Burcu Biricik ekran işindən ayrılması ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib.**

**Axşam.az xəbər verir ki, aktrisanın qəza keçirməsi səbəbindən bu addımı atdığı iddia edilirdi. O, instaqram hesabında video paylaşaraq yayılanları şayiə adlandırıb:**

**"Çox şükür qəza keçirməmişəm. Çox yaxşıyam. Həmçinin, "Camdaki kız" serialından da ayrılmıram".**

***Qeyd edək ki, reytinqlərdə ilk sırada yer alan ekran işində Feyyaz Şerifoğlu, Nur Sürer, Hamza Yazıcı, Hande Ataizi kimi məşhur aktyorlar rol alır.***



# Açar qızıldandı

## İran şahlarının avtomobilləri sərgilənir

Məlahət Rzayeva

**İranın paytaxtı Tehranda Tarixi Avtomobillər Muzeyində Nəsrəddin şah və Rza şah Pəhləvinin XIX və XX əsrlərdə istifadə etdikləri avtomobillər sərgiyə çıxarılıb. Bunlar "Mersedes", "Cadillac", "Rolls Royse", "Porsche", "Ferrari", "Maserati", "Lombarghini", "Chreyler" kimi dünyanın məşhur avtomobil markalarının yeganə, ya da məhdud sayda istehsal olunan nümunələridir.**

İranda 1848-1896-cı illərdə hökm sürən Qazcarlar xanədana mənsub olmuş Nəsrəddin Şaha aid "Nasiri faytonu" adlı atlı araba və 1909-1925-ci illərdə ölkənin şahı olmuş Əhməd Şah Qacara aid 1922-ci il istehsalı "Panther-Laser" avtomobili də muzeydə sərgilənir. Pəhləvi sülaləsinin qurucusu Rza Şah Pəhləvi, oğlu Məhəmməd Rza Pəhləvi və həyat yoldaşları Fərəh və Süreyya Pəhləvilərə mənsub avtomobillər də muzeydə ən çox maraq doğuran eksponatlardır. Bu avtomobillər həm də həddindən artıq bahalıdır. Məsələn, Məhəmməd Rza Şahın "Pierce-Arrow A Model" avtomobili o dönəm üçün təqribən ölkə büdcəsinin 8-də 1-i qədər olub. Avtomobil qızılla bəzədilib. Şahın istifadə etdiyi avtomobil dünyada sadəcə 1 ədəd istehsal edilib. Bu avtomobilin 2 açarı var ki, biri gümüşdən, biri isə qızıldandır. Gümüş açarla çalışdırıldığında avtomobil yalnız 2 sürətlə hərəkət edə bilir və saatda 30 kilometr sürət ala bilir. Qızıl açarla hərəkətə gətirildiyində isə 4 sürət işə düşür və 170 kilometr sürətlə hərəkət edir. Muzeydə 55 avtomobil, 4 motosiklet və 2 səltənət faytonu sərgilənir.





## Məşhur yazıçı: Xəstəliklərin artmasının səbəbi insanların çox dərman içməsidir



**Betsteller kitabların müəllifi Corc Vithoulkas müasir tibb üçün yeni paradiqma təqdim edir. Vithulkas iddia edir ki, müasir tibb güclü dərmanların həddindən artıq istifadəsi və çox vaxt lazımsız istifadəsi səbəbindən bir çox xəstəliklərin qarşısını almaq və müalicə etmək vəzifəsində uğursuzluğa düçar olub.**

O, QİÇS, xərçəng, astma, epilepsiya, şizofreniya, Alzheimer, revmatoid artrit və digər ağır xəstəliklərlə bağlı halların sayının artmasına səbəb kimi həddindən artıq dərman istifadəsi nəticəsində immunitet sisteminin zəifləməsini göstərir.

**Aztibb.az "Sağlamlıq və xəstəlik üçün yeni model" kitabından bəzi fraqmentləri oxucuları ilə paylaşır.**

- İndiyə qədər sağlamlığımızın keyfiyyətinin bədənimizdə normal olaraq mövcud olan və bələliklə də həyatımızın əsasını təşkil edən mikroorqanizmlərin keyfiyyətindən asılı olduğu demək olar ki, tamamilə başa düşülməmişdir...

- Bədənimizə zərərli hesab edilən orqanizmləri daxil edərək həyatımızın əsasını təşkil edən mikroorqanizmlərin tarazlığını pozsaq, zamanla bədənimiz də istər-istəməz zərərli orqanizmə çevrilir.

## Hicabsız şəkil paylaşdığı üçün həbs olundu

Model 5 il azadlıqdan məhrum edilib



**Yəməndə islam qaydalarını pozduğu üçün həbs edilən 20 yaşlı model Entesar əl-Həmmadi ilə bağlı qərar verilib.**

**Axşam.az xəbər verir ki, model 5 il azadlıqdan məhrum edilib. Buna səbəb Entesar əl-Həmmadinin fevralda hicabsız şəkillər çəkdirib və yayımlaması olub.**

**Fevraldan bu yana həbsxanada olan modelin vəkili isə açıqlamasında deyib ki, içəridə olduğu müddətdə Entesar müxtəlif zorakılığa məruz qalıb.**

**"Ona narkotik istifadə etmək", "fahişəlik" kimi bir neçə cinayət etiraf etdiriblər. Hamısı yalandır" deyə, vəkil bildirib.**

**O vurğulayıb ki, prokurorlar bu cinayətləri qəbul etmədiyi təqdirdə onu bakirəlik testi verməklə hədələyiblər.**

***Qeyd edək ki, Entesar əl-Həmmadi sosial şəbəkələrdə paylaşdığı fotoları ilə məşhur olub.***